# ELM

Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin orqanı

Qüvvət elmdədir...

Nizami Gəncəvi

# НАУКА

Орган Президиума Национальной академии наук Азербайджана

# SCIENCE

Newspaper of the Presidium of the Azerbaijan National Academy of Sciences

№ 21 (1461) ❖ Cümə, 20 iyun 2025-ci il ❖ Qəzet 1984-cü ildən nəşr olunur




# Kahramanmaraşda «Azərbaycan» məhəlləsi qardaşlıq və həmrəyliyin rəmzidir

**İyunun 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyəyə işgüzar səfər edib. Səfər çərçivəsində Prezident İlham Əliyev qardaş ölkənin dövlət başçısı Rəcəb Tayyib Ərdoğanla görüşüb.**

Sonra Azərbaycan-Türkiyə qardaşlığının növbəti parlaq təzahürü olaraq Türkiyənin Kahramanmaraş şəhərində dövlət başçılarının iştirakı ilə "Azərbaycan" məhəlləsinin açılışı mərasimi keçirilib. Mərasimdə hər iki ölkənin dövlət himnləri səsləndirilib və Azərbaycan tərəfindən inşa edilən yaşayış məhəlləsinə həsr olunmuş videoçarx nümayiş etdirilib.

Zəlzələdən zərər çəkmiş bölgədə Azərbaycan tərəfindən inşa edilən bu yaşayış kompleksi iki ölkə arasında sarsılmaz dostluğun, humanitar həmrəyliyin və strateji tərəfdaşlığın rəmzi kimi qiymətləndirilib.

Prezident İlham Əliyev açılış mərasimində çıxışında Azərbaycan-Türkiyə birliyinin sarsılmaz olduğunu vurğulayıb. Qeyd edib ki, bu məhəllənin açılışı iki ölkə arasındakı birlik və dostluğun canlı sübutudur. Qarabağ müharibəsinin ilk saatlarından Türkiyə liderinin və xalqının dəstəyinin Azərbaycanın mübarizəsinə güc qatdığını xatırladan dövlətimizin başçısı, bu həmrəyliyin hər zaman davam etdiyini bildirib.

Prezident Rəcəb Tayyib Ərdoğan çıxışında "Azərbaycan" məhəlləsinin "Bir millət, iki dövlət" fəlsəfəsinin daha bir canlı təzahürü olduğunu bildirib. O, 2023-cü il fevral zəlzələsindən sonra Türkiyəyə ilk yardım edən ölkələrdən birinin məhz Azərbaycan olduğunu qeyd edib və bu yardıma görə Prezident İlham Əliyevə və Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevaya xüsusi təşəkkürünü çatdırıb.

Dövlət başçıları çıxışlarında Azərbaycanın işğaldan azad etdiyi ərazilərdə sürətlə aparılan bərpa-quruculuq işlərini yüksək qiymətləndirərək, bu prosesin regionda sülhə və inkişafa yol açacağına ümidvar olduqlarını bildiriblər.

Sonda hər iki liderin çıxışları dövlətlərarası münasibətlərin möhkəm təməli və xalqlar arasında sıx münasibətlər baxımından, iki ölkə arasında dostluq və əməkdaşlığın dərin kökələrə malik olduğunu və gələcəkdə daha da güclənəcəyini nümayiş etdirib.

Kahramanmaraşda ucaldılan "Azərbaycan" məhəlləsi bu qardaşlığın və mənəvi həmrəyliyin daş yaddaşı olaraq tarixə yazılıb.

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 21 dekabr tarixli 584 nömrəli Qərarı ilə təsdiq edilmiş "Baza maliyyələşdirilməsinin subyektləri olan elmi müəssisə və təşkilatların Siyahısı"nda və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 30 sentyabr tarixli 374 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Milli Elmlər Akademiyasının strukturu"nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin QƏRARI

№ 181 — *Bakı şəhəri, 18 iyun 2025-ci il*

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 21 dekabr tarixli 584 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu 2017, №12 (II kitab), maddə 2531 (Cild I); 2024, №5 (II kitab), maddə 602) ilə təsdiq edilmiş "Baza maliyyələşdirilməsinin subyektləri olan elmi müəssisə və təşkilatların Siyahısı"nın 2.10-cu bəndi ləğv edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 30 sentyabr tarixli 374 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 9, maddə 1107 (Cild I); 2024, №1, maddə 97) ilə təsdiq edilmiş "Azərbaycan Milli Elmlər Akademiyasının strukturu"nun 2.11-ci bəndi ləğv edilsin.

3. Azərbaycan Milli Elmlər Akademiyası bu Qərardan irəli gələn məsələləri həll etsin.

**Əli ƏSƏDOV**
**Azərbaycan Respublikasının Baş naziri**

# Azərbaycan Milli Elmlər Akademiyasının inkişaf yolu və müasir dövr

## *Naxçıvan Bölməsində AMEA-nın 80 illiyinə həsr olunmuş elmi sessiya*




**Azərbaycan Milli Elmlər Akademiyasının 80 illiyi AMEA-nın Naxçıvan Bölməsində qeyd olunub.**

Elmi sessiyanı giriş sözü ilə AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev açıb. Akademik Azərbaycan Milli Elmlər Akademiyasının Azərbaycan cəmiyyətinin elmi-mədəni mühitinə, ictimai-siyasi həyatına, kadr hazırlığına, cəmiyyətin elmi potensialının artırılmasına göstərdiyi xidmətləri diqqətə çatdırıb.

AMEA-nın prezidenti akademik İsa Həbibbəyli elmi sessiyada "Azərbaycan Milli Elmlər Akademiyasının inkişaf yolu və müasir dövr" mövzusunda məruzə edib. Azərbaycan Milli Elmlər Akademiyasının inkişafı, regionlarda açılan yeni şöbələrin fəaliyyəti, süni intellektin elmə olan təsiri kimi məsələlərə toxunub. Türkologiya, Qərbi Azərbaycan, Qarabağ müharibəsi məsələlərindən ətraflı söz açıb. Akademik İsa Həbibbəyli dövlət başçısına Azərbaycan Milli Elmlər Akademiyasına göstərdiyi qayğı və etimada görə AMEA kollektivi adından minnətdarlığını bildirib.

Çıxışının sonunda akademik İsa Həbibbəyli AMEA Naxçıvan Bölməsinə azərbaycançılıq və elm fəlsəfəsinin əks olunduğu tablo, Azərbaycan Milli Elmlər Akademiyası Elektron Kitabxanasının limitsiz istifadə üçün oxucu kartı, "Azərbaycan Milli Elmlər Akademiyası.Simalar" (ikicilddə) kitablarını və AMEA-nın emblemi əks olunan xatirə saatını hədiyyə edib.

Daha sonra Naxçıvan Dövlət Universitetinin rektoru, dosent Elbrus İsayev, AMEA-nın müxbir üzvləri Əbülfəz Quliyev və Vəli Baxşəliyev, Naxçıvan Bioresurslar İnstitutunun baş elmi işçisi, akademik Tarıyel Talıbov çıxışlarında AMEA-nın inkişafından, Prezident İlham Əliyevin elmə göstərdiyi qayğıdan, rəhbərlik etdikləri qurumlarda elmi fəaliyyətin təşkilindən, süni intellektin elmə tətbiqindən bəhs ediblər və AMEA əməkdaşlarına təbriklərini çatdırıblar.

# Qərbi Azərbaycan: tarixi, mədəniyyəti və böyük qayıdış



**Naxçıvanda "Qərbi Azərbaycan: tarixi, mədəniyyəti və böyük qayıdış" mövzusunda respublika elmi konfransı keçirilib.**

Konfrans Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti, Azərbaycan Milli Elmlər Akademiyası, AMEA-nın A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu, AMEA-nın Naxçıvan Bölməsi, Qərbi Azərbaycan İcması və Naxçıvan Dövlət Universitetinin birgə təşkilatçılığı ilə baş tutub.

Tədbirdən əvvəl Ulu Öndər Heydər Əliyevin Naxçıvan şəhərindəki abidəsi və Heydər Əliyev Muzeyi ziyarət edilib. Qonaqlar Ümummilli Liderin həyatı, fəaliyyətinə və zəngin dövlətçilik irsinə həsr olunmuş ekspozisiya nümunələri ilə tanış olublar.

Daha sonra "Qərbi Azərbaycan: tarixi, mədəniyyəti və böyük qayıdış" adlı sərgiyə baxış keçirilib.

Plenar iclas AMEA-nın Naxçıvan Bölməsinin sədri akademik İsmayıl Hacıyevin çıxışı ilə başlayıb. O, Azərbaycan xalqına qarşı törədilən soyqırım və deportasiyalardan danışıb. Bildirib ki, müəyyən dövrlərdə həyata keçirilən deportasiyaların nəticəsində 300 minə yaxın azərbaycanlı öz doğma yurdundan ayrı düşüb. Son dövrlərdə Qərbi Azərbaycana həsr olunmuş həm beynəlxalq, həm də respublika səviyyəli tədbirlərin sayının artmasına diqqət çəkən İsmayıl Hacıyev bu məsələnin əhəmiyyətini qeyd edib.

Naxçıvan Muxtar Respublikasının Baş naziri Ceyhun Cəlilov çıxışında ölkəmizin inkişafındakı uğurlara diqqət çəkib. Bu tərəqqinin Prezident İlham Əliyevin yeritdiyi siyasət, milli birliyimiz və ordumuzun hesabına olduğunu vurğulayıb. Ceyhun Cəlilov Qərbi Azərbaycana məxsus toponimlərin, dil faktorlarının, abidələrin və digər mədəniyyət nümunələrinin araşırılmasında elmi əsaslar ortaya qoyan elm adamlarına uğurlar arzulayıb.

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti akademik İsa Həbibbəyli çıxışında dövlət başçısının sülhə və əməkdaşlığa əsaslanan uzaqgörən siyasətinə diqqət çəkib. 44 günlük müharibənin uğurlu nəticələrindən, AMEA-da Qərbi Azərbaycanın tarixinin və folklorunun araşdırılması üçün açılan şöbələrdən danışıb.

Akademik İsa Həbibbəyli özünün Ön sözü ilə işıq üzü görmüş "Naxçıvanın bir əsrlik biblioqrafik salnaməsi" kitabını Ceyhun Cəlilova hədiyyə edib.

Azərbaycan Ağsaqqallar Şurasının sədr müavini, Qərbi Azərbaycan İcmasının Amasiya rayonu üzrə icmanın sədri Abel Məhərrəmov Naxçıvan və Qərbi Azərbaycanın tarixindəki oxşarlıqlardan və Qərbi Azərbaycan İcmasının fəaliyyətindən söz açıb.

Naxçıvan Dövlət Universitetinin rektoru tarix üzrə fəlsəfə doktoru, dosent Elbrus İsayev Qərbi Azərbaycanın araşdırılmasına həsr olunmuş fundamental tədqiqatlara diqqət çəkib. Bu araşdırmaların gənc tədqiqatçılar üçün yeni üfüqlər açdığını qeyd edib. Elbrus İsayev Qərbi Azərbaycanla bağlı universitetdə görülən işlərə diqqət çəkib.

Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin üzvü, Keşkənd rayon icmasının sədri, professor Mahirə Hüseynova Qərbi Azərbaycan toponimlərinin dəyişdirilməsi və bu sahədə Azərbaycan alimlərinin öhdəliklərindən ətraflı şəkildə danışıb. Toponimlərin araşdırılmasına diqqət çəkən professor adı dəyişdirilən ərazilərimizdən söz açıb.

Türkiyənin İğdır Universitetinin Fənn ədəbiyyatı fakültəsinin dosenti coğrafiya üzrə fəlsəfə doktoru Oğuz Şimşək Qərbi Azərbaycanın tarixi haqqında dəqiq məlumatlarla çıxış edib. Tarixi ərazilərimizi slaydlar vasitəsilə konfrans iştirakçılarına nümayiş etdirib. İrəvana həsr olunmuş şeiri səsləndirən Oğuz Şimşək erməni vəhşiliklərindən də söz açıb. Məqsədli şəkildə adı dəyişdirilən kəndlərimizin tarixindən bəhs edib.

AMEA-nın A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun Qərbi Azərbaycan tarixi şöbəsinin müdiri professor Cəbi Bəhramov Qərbi Azərbaycanın tarixi və mədəniyyətinin tədqiq edilməsindən ətraflı şəkildə danışıb. Tarixi torpaqlarımızın mədəniyyətimizin dəqiq mənbələrə əsaslanaraq araşdırılmasının əhəmiyyətini qeyd edib.

Konfransda Qərbi Azərbaycanın tarixin müəyyən dövrlərində çəkdiyi bəlalar, vətəndaşlarımızın doğma torpaqlarımıza qayıtmaq üçün çəkdikləri həsrətdən danışılıb. Prezident İlham Əliyevin başçılığı ilə "Böyük Qayıdış"ın baş tutması, tarixi torpaqlarımızın bərpa olunması kimi məsələlər barədə ətraflı müzakirələr aparılıb və təhlillər edilib.

Daha sonra "Biz qayıdacağıq" sənədli filminə baxış keçirilib.

# AMEA və NDU arasında əməkdaşlıq memorandumu



**Naxçıvan Dövlət Universiteti (NDU) və Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) arasında universitetin elmi kitabxanasında görüş olub.**

Görüşdə NDU-nun rektoru Elbrus İsayev, AMEA-nın prezidenti akademik İsa Həbibbəyli, AMEA Naxçıvan Bölməsinin sədri akademik İsmayıl Hacıyev, AMEA Mərkəzi Elmi Kitabxanasının direktoru Hüseyn Hüseynov, AMEA-nın Xarici əlaqələr və beynəlxalq təşkilatlarla iş şöbəsinin müdiri Esmira Əlirzayeva, eləcə də universitetin rəhbər və akademik heyəti iştirak ediblər.

Tədbir çərçivəsində AMEA və NDU arasında elmi əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanıb. Memoranduma əsasən birgə tədqiqat layihələrinin icrası, elmi kadrların hazırlanması və qarşılıqlı mübadiləsi, elmi konfransların, simpoziumların və seminarların təşkili nəzərdə tutulur. Eyni zamanda kitabxana işi üzrə təcrübə mübadiləsi və kadr hazırlığına dəstək, elmi məlumatların, nəşrlərin və əsərlərin mübadiləsi, NDU-nun professor-müəllim heyəti və tələbələri üçün AMEA-nın Mərkəzi Elmi Kitabxanasının Elektron resurslarından ödənişsiz istifadənin təmin edilməsi hər iki qurumun kitabxanaları arasında əməkdaşlığın genişləndirilməsi planlaşdırılır.

NDU-nun rektoru Elbrus İsayev ortaq fəaliyyəti əhəmiyyətli və uğurlu əməkdaşlıq olaraq qiymətləndirib, AMEA-nın 80 illik yubileyi münasibəti ilə akademik İsa Həbibbəylini və heyətini təbrik edib, fəaliyyətində uğurlar arzulayıb. İkitərəfli əlaqələrin təhsil mühitinin inkişafına yönəldiyini, elmi əlaqələrin genişlənməsinə hədəfləndiyini bildirib. Rektor NDU ilə Bakı Dövlət Universiteti, ADA Universiteti, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Azərbaycan Dillər Universiteti və digər ali məktəblərlə kitab mübadiləsinin aparıldığını xatırladıb, kitabxanaların elmi mübadilə platforması kimi məsuliyyətli roluna diqqət çəkib.

AMEA-nın prezidenti akademik İsa Həbibbəyli görüşdən məmnunluğunu ifadə edib, əməkdaşlıqların elmin inkişafına dəyərli töhfə verəcəyini bildirib. Akademik Azərbaycan Respublikası Prezidentinin 18 mart 2025-ci il tarixli "Azərbaycan Milli Elmlər Akademiyasının 80 illiyinin qeyd edilməsi haqqında" Sərəncamını diqqətə çatdıraraq bu sənədin elmə, Akademiyaya və alimlərə verilən yüksək dəyərin bariz nümunəsi olduğunu vurğulayıb. O, yubiley tədbirinin ilk dəfə məhz doğma Naxçıvanda keçirilməsinin xüsusi əhəmiyyət daşıdığını bildirib. Akademik İsa Həbibbəyli, eyni zamanda, Naxçıvan Dövlət Universitetinin son illərdə qazandığı uğurları, elmi nailiyyətləri və beynəlxalq əməkdaşlıq əlaqələrini yüksək qiymətləndirib.

AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev Naxçıvan Dövlət Universitetinin ölkənin ən qabaqcıl ali təhsil müəssisələri sırasında xüsusi yeri olduğunu söyləyib. Qeyd edib ki, əməkdaşlıq hər iki tərəfin mövcud imkanları çərçivəsində qarşılıqlı faydalı olmaq və ikitərəfli əməkdaşlığın genişləndirilməsi istiqamətində səylərini birləşdirmək istəklərinə əsaslanır.

AMEA Mərkəzi Elmi Kitabxanasının direktoru Hüseyn Hüseynov, NDU-nun Elmi Kitabxanasının direktoru Xumar Məmmədova çıxış edərək birgə əməkdaşlığın daha uğurlu və səmərəli göstəricilərin əldə olunmasına vəsilə olacağını ifadə ediblər.

Daha sonra akademik İsa Həbibbəyli rektor Elbrus İsayevə və direktor Xumar Məmmədovaya AMEA Mərkəzi Elmi Kitabxanasının üzvlük vəsiqələrini təqdim edib.

Sonda birgə əməkdaşlıq münasibəti ilə görüşdən xatirə olaraq qarşılıqlı hədiyyələr təqdim edilib və foto çəkdirilib.

# I Türkoloji Qurultayın 100 illik yubileyinə hazırlıqla bağlı məsələlərin müzakirəsi

**İyunun 18-də AMEA-nın prezidenti akademik İsa Həbibbəyli Türkiyənin Atatürk Kültür, Dil və Tarix Yüksək Qurumunun tərkibinə daxil olan Türk Dil Qurumunun rəhbəri professor Osman Mertlə görüşüb.**



AMEA-nın Rəyasət Heyətində keçirilən görüşdə akademik İsa Həbibbəyli Azərbaycan-Türkiyə dostluq qardaşlıq münasibətlərinin hər zaman olduğu kimi bu gün də yüksək səviyyədə davam etdiyini, əlaqələrimizin təməlində Ulu Öndər Heydər Əliyevin şüara çevrilmiş "Bir millət, iki dövlət" sözlərinin dayandığını bildirib.

Akademik İsa Həbibbəyli Azərbaycan Milli Elmlər Akademiyasının qardaş Türkiyənin akademik qurumları ilə sıx münasibətləri olduğunu, bu günlərdə AMEA-nın və Türkiyə Elmlər Akademiyasının (TÜBA) birgə təşkilatçılığı ilə "Azərbaycan və Türkiyə dünya siyasətində" mövzusunda beynəlxalq elmi konfransın keçiriləcəyini diqqətə çatdırıb.

Görüş zamanı 2026-cı ildə Bakıda keçiriləcək I Türkoloji Qurultayın 100 illik yubileyinə hazırlıqla bağlı nəzərdə tutulan işlər müzakirə olunub. AMEA-nın Türk Dil Qurumu ilə ortaq konfransların, seminarların təşkili və nəşrlərin ərsəyə gətirilməsinin əhəmiyyəti vurgulanıb.

Öz növbəsində çıxış edən Türk Dil Qurumunun rəhbəri professor Osman Mert AMEA-da olmaqdan məmnunluğunu dilə gətirib, rəhbərlik etdiyi təşkilatın Milli Elmlər Akademiyası ilə sıx münasibətləri olduğunu söyləyib. Professor Osman Mert I Türkoloji Qurultayın 100 illik yubileyi ilə bağlı bir sıra təkliflərini səsləndirib.

Daha sonra qonağa hədiyyələr təqdim olunub, xatirə şəkli çəkdirilib.

Professor Osman Mert, həmçinin AMEA-nın Rəyasət Heyəti aparatının "Elektron Akademiya" şöbəsinin əməkdaşları ilə görüşüb, aparılan tədqiqatlarla tanış olub.

# Azərbaycan əsgərinə elmin dəstəyi

**AMEA-nın prezidenti akademik İsa Həbibbəyli 15 iyun 2025-ci il tarixdə Naxçıvan Muxtar Respublikasının Şərur rayonunda N saylı hərbi hissənin əsgər və zabit heyəti ilə görüşüb.**

Şəxsi heyət qarşısında çıxış edən AMEA prezidenti Milli Qurtuluş Günü münasibətilə əsgər və zabitləri təbrik edib, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin adı və mübarizəsi ilə bağlı olan bu əlamətdar tarixi günün siyasi-tarixi mahiyyəti və əhəmiyyətindən söz açıb.

Görüşdə ölkəmizdə Milli Qurtuluşdan ərazi bütövlüyünə və dövlət suverenliyinə qədər keçilən məsuliyyətli yolun şərəfli salnaməsinin əlamətdar hadisələri barədə əsgərlərə məlumat verilib.



Akademik İsa Həbibbəyli əsgərlərə Aşıq Ələsgərin, Cəlil Məmmədquluzadənin və Qurban Səidin kitablarını hədiyyə edib, ərzaq yardımı kimi əsgər sovqatı verib.

AMEA prezidenti əsgərlərin yaşayışı ilə tanış olub və onlarla birlikdə nahar edib.

# Qədim yaşayış yerləri ilə tanışlıq



**AMEA-nın prezidenti akademik İsa Həbibbəyli Naxçıvan Muxtar Respublikasının Şərur rayonundakı Yastan və Veysəli adlanan qədim yaşayış məskənləri ilə tanış olub.**

Buradakı köhnə tikililər, su mənbələri və əmək alətləri Yastan və Veysəli yaşayış məskənlərinin qədim tarixə malik olduğunu göstərir. Akademik İsa Həbibbəyli ölkəmizin qədim yaşayış məskənlərinin tarix, arxeologiya və etnoqrafiya baxımından araşdırılıb öyrənilməsini Azərbaycan elminin mühüm vəzifələrindən biri olduğunu qeyd edib və müvafiq tapşırıqlar verib.

# İndoneziyalı professor Riri Fitri Sari ilə görüş

**AMEA-nın prezidenti akademik İsa Həbibbəyli ölkəmizdə səfərdə olan "UI GreenMetric" Dünya Universitetləri reytinqinin təsisçisi, İndoneziya Universitetinin professoru Riri Fitri Sari ilə görüşüb.**



Görüşdə akademik İsa Həbibbəyli Milli Elmlər Akademiyasında aparılan islahatlar içərisində başlıca istiqamətlərdən birinin elektron hərəkatı olduğunu və bu münasibətlə AMEA-nın Rəyasət Heyəti aparatında "Elektron Akademiya" şöbəsinin yaradıldığını bildirib. Qeyd edib ki, şöbə tərəfindən qısa müddət ərzində reytinq göstəriciləri, rəqəmsallaşma, süni intellektin elmi tədqiqatlarda tətbiqi, elektron xidmətlər şəbəkəsinin genişləndirilməsi istiqamətində mühüm nəticələr əldə olunub, Azərbaycan elmini dünyaya çıxarmaq məqsədilə alimlərimizin beynəlxalq akademik şəbəkələrdə profilləri yaradılıb, elmi nəşrlərin veb saytları hazırlanıb və jurnallarda işıq üzü görən məqalələrə DOİ identifikatoru verilməyə başlanıb.

AMEA rəhbəri, bu gün həyatımızın bir parçasına çevrilən süni intellektin humanitar və ictimai elmlər sahələri üzrə elmi tədqiqatlarda tətbiqi imkanlarının genişləndirilməsi istiqamətində mühüm addımlar atıldığını söyləyib və bununla bağlı alimlərimizin indoneziyalı mütəxəssislərlə əməkdaşlıqda maraqlı olduğunu bildirib.

Öz növbəsində "UI GreenMetric" Dünya Universitetləri reytinqinin təsisçisi professor Riri Fitri Sari təmsil etdiyi qurumun elmi-tədqiqat fəaliyyəti barədə məlumat verib. Professor "UI GreenMetric" Dünya Universitetləri reytinqinin elmi qurumların və universitetlərin bir sıra istiqamətlərdə elmi-tədqiqat fəaliyyətlərinin qiymətləndirilməsində mühüm rol oynadığını deyərək reytinqin qurumlar arasında əməkdaşlıq və təcrübə mübadiləsi üçün əvəzsiz platforma olduğunu bildirib.

AMEA-nın Rəyasət Heyəti aparatının "Elektron Akademiya" şöbəsinin baş mütəxəssisi Aygün Əliyeva təmsil etdiyi şöbənin fəaliyyət istiqamətləri barədə qonağa məlumat verib, sualları səsləndirib.

Görüşdə reytinq, rəqəmsallaşma, süni intellekt, yaşıl texnologiyalar istiqamətində birgə əməkdaşlığa dair fikir mübadiləsi aparılıb, uyğun mütəxəssislərlə əlaqələrin yaradılması və davam etdirilməsi barədə razılığa gəlinib.

Sonra qonaq AMEA-nın Rəyasət Heyətində olub, "Elektron Akademiya" şöbəsinin əməkdaşları ilə görüşüb, bir sıra təcrübələrini onlarla bölüşüb. Sonda AMEA-nın Rəyasət Heyətinin binası ilə tanış olub.

# Akademik İsa Həbibbəyliyə Rəsul Rza mükafatının təqdimatı



**Rəsul Rzanın ev-muzeyində AMEA-nın prezidenti akademik İsa Həbibbəyliyə Rəsul Rza mükafatı təqdim olunub.**

Bu məqsədlə keçirilən tədbiri muzeyin direktoru Fidan Rzayeva açaraq, yeni fəaliyyətə başlayan muzeydə ilk tədbirin 2025-ci il Rəsul Rza mükafatının akademik İsa Həbibbəyliyə təqdim edilməsi ilə keçirildiyini diqqətə çatdırıb.

Rəsul Rza Ədəbiyyat Ocağı İctimai Birliyinin sədri, Milli Məclis sədrinin müavini akademik Rafael Hüseynov çıxış edərək Rəsul Rza tədqiqatlarına görə builki mükafatla AMEA-nın prezidenti akademik İsa Həbibbəylinin təltif olunduğunu bildirib. Qeyd edib ki, Azərbaycan ədəbiyyatşünaslıq elmində özünəməxsus dəst-xəti, əhəmiyyətli elmi tədqiqatları ilə seçilən akademik İsa Həbibbəyli Xalq şairi Rəsul Rzanın, həmçinin Xalq şairi Nigar Rəfibəyli və Xalq yazıçısı Anarın yaradıcılığı haqqında dəyərli tədqiqat əsərlərinin müəllifidir. Akademik İsa Həbibbəylini Azərbaycan ədəbiyyatşünaslıq elminin görkəmli nümayəndəsi, bacarıqlı elm təşkilatçısı kimi xarakterizə edən akademik Rafael Hüseynov Rəsul Rza mükafatı ilə təltif olunması münasibətilə AMEA rəhbərini təbrik edib.

Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar çıxış edərək akademik İsa Həbibbəylinin Azərbaycan ədəbiyyatının tədqiqində böyük xidmətlərini xüsusi qeyd edərək Xalq şairləri olan atası Rəsul Rza və anası Nigar Rəfibəyli yaradıcılığı barədə dəyərli elmi-tədqiqat əsərlərinə görə minnətdarlığını bildirib.

AYB-nin katibi yazıçı Elçin Hüseynbəyli də qiymətli elmi tədqiqatlarına görə Rəsul Rza mükafatı ilə təltif edilməsi münasibətilə akademik İsa Həbibbəylini təbrik edib, yeni yaradıcılıq uğurları arzulayıb.

Sonra Rəsul Rza Ədəbiyyat Ocağı İctimai Birliyinin sədri, Milli Məclis sədrinin müavini akademik Rafael Hüseynov 2025-ci ilin Rəsul Rza mükafatını AMEA-nın prezidenti akademik İsa Həbibbəyliyə təqdim edib.

Tədbirin sonunda akademik İsa Həbibbəyli çıxış edərək Xalq şairinin ocağında birinci tədbirin ona Rəsul Rza mükafatının təqdim olunması münasibətilə keçirildiyinə görə muzey rəhbərliyinə, dəyərli ədəbiyyatşünaslıq mükafatına layiq görüldüyünə görə Rəsul Rza Ədəbiyyat Ocağı İctimai Birliyinin sədri akademik Rafael Hüseynova və AYB-nin sədri, Xalq yazıçısı Anara təşəkkürünü bildirib.

# Belaruslu alimlərlə görüş



**AMEA-nın prezidenti akademik İsa Həbibbəyli Belarus Milli Elmlər Akademiyasının Fəlsəfə İnstitutunun direktoru f.ü.f.d., dos. Anatoli Lazaroviçin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

AMEA-nın Rəyasət Heyətində baş tutan görüşdə çıxış edən akademik İsa Həbibbəyli Azərbaycan-Belarus əlaqələrindən danışıb, dövlətlərimiz arasında uzun illərə dayanan sıx dostluq, etibarlı tərəfdaşlıq münasibətlərinin formalaşdığını söyləyib.

Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş dövlət siyasətinin ölkə başçısı tərəfindən uğurla davam etdirildiyini deyən AMEA rəhbəri bu gün Prezident İlham Əliyevin dünyanın aparıcı liderlərindən biri kimi qəbul edildiyini, Azərbaycanın beynəlxalq müstəvidə söz sahibi ölkələrdən birinə çevirdiyini bildirib. Qeyd edib ki, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında tarixi torpaqlarımız düşmən işğalından azad edilib və Belarus dövləti və onun lideri daim Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyib, ölkəmizin yanında yer alıb.

Azərbaycan-Belarus elmi əlaqələrinin çoxillik tarixi olduğunu deyən akademik İsa Həbibbəyli bu münasibətlərin müstəqillik illərində də davam etdiyini, son dövrlərdə birgə beynəlxalq qrant müsabiqələrinin keçirildiyini, qarşılıqlı konfranslarda iştirakların baş tutduğunu vurğulayıb.

Son illərdə Azərbaycan elmində aparılan islahatlar barədə məlumat verən akademik İsa Həbibbəyli bu gün AMEA-da humanitar və ictimai elmlərdə, həmçinin seysmologiya istiqamətində ölkə başçısının tapşırıqlarından, dövlətimizin prioritetlərindən və müasir dünya elminin çağırışlarından irəli gələrək tədqiqatların aparıldığını bildirib.

Akademik İsa Həbibbəyli Belarus Elmlər Akademiyası ilə yeni əməkdaşlıq müqaviləsinin imzalanmasına dair razılığa gəlindiyini söyləyib.

Sonra çıxış edən Belarus Milli Elmlər Akademiyasının Fəlsəfə İnstitutunun direktoru f.ü.f.d., dos. Anatoli Lazaroviç səmimi görüşə görə minnətdarlığını bildirib, ölkəmizdə olmaqdan məmnunluğunu ifadə edib. Öz növbəsində Azərbaycan-Belarus əlaqələrinin yüksək səviyyədə olmasından danışan Anatoli Lazaroviç rəhbərlik etdiyi institutun AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutu ilə sıx münasibətləri olduğunu bildirib.

İyunun 17-də Fəlsəfə və Sosiologiya İnstitutunda keçirilən "Heydər Əliyevin ideya irsi: suverenitet və konstitusionalizmin fəlsəfi problemləri" mövzusunda beynəlxalq konfransda iştirak etdiklərini deyən alim iki il öncə Ulu Öndərin 100 illiyinə həsr olunmuş tədbirlərə də qatıldıqlarını diqqətə çatdırıb.

Bu gün dəyişən, inkişaf edən, müharibələrin, sosial böhranların baş verdiyi dünyada tədqiqatlar aparmaq üçün bir çox problemlərin olduğunu bildirən Anatoli Lazaroviç humanitar və ictimai elmlərin, xüsusilə filosofların üzərinə böyük məsuliyyət düşdüyünü vurğulayıb. O, Fəlsəfə və Sosiologiya İnstitutu ilə əməkdaşlıqdan məmnunluq duyduğunu söyləyib, əlaqələrin daha da genişləndirilməsinə hazır olduqlarını deyib.

Görüşdə, həmçinin AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun direktoru professor İlham Məmmədzadə, həmin institutun şöbə müdiri professor Azər Mustafayev, Belarus Milli Elmlər Akademiyasının Fəlsəfə İnstitutunun aparıcı elmi işçisi f.ü.f.d., dos. Nataliya Lazaroviç və Belarus Dövlət Universitetinin Fəlsəfə və elmin metodologiyası kafedrasının dosenti, f.ü.f.d. Olqa Kurbaçova çıxış edərək sosial ekologiya, sosial humanitar sahədə birgə əməkdaşlıq imkanlarının genişləndirilməsindən, kadr mübadiləsindən, birgə məqalələrin hazırlanması və çapı və s. barədə danışıblar.

Sonra belaruslu alimlərə hədiyyələr təqdim olunub, xatirə şəkilləri çəkdirilib.

# «Biomüxtəlifliyin aktual problemləri, müasir baxışlar və tədqiqatlar» mövzusunda respublika elmi-praktik konfransı



**ETN Zoologiya İnstitutunun təşkilatçılığı ilə "Biomüxtəlifliyin aktual problemləri, müasir baxışlar və tədqiqatlar" mövzusunda respublika elmi-praktik konfransının açılış mərasimi keçirilib.**

Tədbiri giriş nitqi ilə institutun baş direktoru a.e.d., dosent Əlləddin Eyvazov açaraq "Biomüxtəlifliyin aktual problemləri, müasir baxışlar və tədqiqatlar" mövzusunda məruzə ilə çıxış edib və konfransı açıq elan edib. O, öz çıxışında quru və su ekosistemlərinin qlobal iqlim dəyişilmələri şəraitində bioloji müxtəlifliyin ümumi problemlərinin, fauna ehtiyatlarından səmərəli istifadənin, bioloji invaziyaların problemlərinin, təbii ekosistemlərdə heyvanların parazit faunasına aid aktual məsələlərin müzakirəsindən söhbət açıb.

Daha sonra tədbirdə AMEA-nın vitse prezidenti, ETN Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun baş direktoru, akademik İradə Hüseynova qonaqları salamlayıb, konfransın işinə uğurlar arzu etdi. İradə Hüseynova Azərbaycanın zəngin biomüxtəlifliyinin qorunması, öyrənilməsi, aktual problemlər istiqamətində görülən çoxşaxəli tədbirlər haqqında danışıb. O, həmçinin heyvan və bitki növlərinin azalması və nəslinin kəsilməsi hadisəsinin vacibliyini vurğulayaraq bu kimi qlobal problemlərin aradan qaldırılması aspektlərindən bəhs edib.

Tədbirdə ETN Mikrobiologiya İnstitutunun baş direktoru, AMEA-nın müxbir üzvü Pənah Muradov, Bakı Dövlət Universitetinin Zoologiya və Fiziologiya kafedrasının müdiri, dosent Əbülfəz Tağıyev, b.e.d., professor Necəfov Canbaxış, professor Aziz Eftekhari, eləcə də Zoom platforması üzərindən xarici qonaqlar - Türkiyə Fırat Universiteti Su Ürünləri Fakültəsi dekanı, professor Dr. Kenan Köprücü, Fırat Universiteti Dr Şəbnəm Fərzəli, REA Ural Şöbəsi (Yekaterinburq) "Filogenetika və bioxronologiya" laboratoriyasının müdiri, b.e.d., dosent Aleksandr Vasilyeviç Borodin məruzələrlə çıxış edərək konfransın işinə uğurlar arzulayıblar.

İki günlük konfrans öz işini seksiyalarda davam etdirib.

# «Meşə tiplərinin tədqiqi və davamlı inkişafı»

## Beynəlxalq konfrans

**İyunun 17-də Botanika İnstitutunda Elm və Təhsil Nazirliyinin, Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin birgə təşkilatçılığı ilə "Meşə tiplərinin tədqiqi və davamlı inkişafı" mövzusunda beynəlxalq konfrans işə başlayıb.**



Açılış mərasimində Botanika İnstitutunun baş direktoru professor Səyyarə İbadullayeva bildirib ki, konfransın keçirilməsində məqsəd yerli və beynəlxalq ekspertləri bir araya gətirməklə respublikada bitki örtüyü və meşələrin müasir vəziyyətini qiymətləndirmək, biomüxtəlifliyin saxlanılması və ekoloji tarazlığın idarə edilməsində meşələrin rolunu müəyyənləşdirməkdir.

Sonra ekologiya və təbii sərvətlər nazirinin müavini biologiya üzrə fəlsəfə doktoru Vüqar Kərimov, AMEA-nın vitse-prezidenti akademik İradə Hüseynova, Çin Elmlər Akademiyasının Sincan Ekologiya və Coğrafiya İnstitutunun baş direktoru, BCAA təsisçisi və prezidenti Zhang Yuanming, Macarıstanın HUN-REN Ekoloji Tədqiqatlar Mərkəzi Ekologiya və Botanika İnstitutunun direktoru professor Peter Odor, Pakistanın Quaid-i-Azam Universitetinin Bitki Elmləri şöbəsinin dosenti Muhammad Zafar çıxış ediblər.

Konfransın plenar hissəsində xarici və yerli alimlərin məruzələri dinlənilib, mövzular ətrafında geniş müzakirələr aparılıb. Sonra iştirakçılara sertifikatlar təqdim olunub.

Konfransın davamında Azərbaycan-Macarıstan komandası tərəfindən meşə tədqiqatlarına həsr olunmuş interaktiv seminar keçirilib.

Tədbir iyunun 19-da meşə ərazilərinə ekspedisiya ilə başa çatıb.

# Akademik Arif Həşimov REA-nın xarici üzvü seçilib

**Məlum olduğu kimi, cari il mayın 28-30-da Rusiya Elmlər Akademiyasının (REA) Ümumi yığıncağı keçirilib.**



Elmi-təşkilati məsələlərlə yanaşı, Ümumi yığıncaqda REA-nın həqiqi, müxbir və xarici üzvləri seçilib. Seçkilər zamanı Azərbaycan Milli Elmlər Akademiyasının akademik-katibi, ETN Fizika İnstitutunun baş direktoru akademik Arif Həşimov REA-nın xarici üzvü seçilib.

Seçkilərin nəticələri mayın 30-da elan olunub. Bildirilib ki, REA-nın xarici üzvü seçilən 39 alim dünyanın 20 ölkəsini təmsil edir. Azərbaycanla yanaşı, bu ölkələr arasında Özbəkistan, Qazaxıstan, Belarus, Çin, ABŞ, Finlandiya, İran, İtaliya, İspaniya, İsrail, Braziliya, Macarıstan, Vyetnam və digərləri təmsil olunur.

Akademik Arif Həşimov REA-nın Energetika, maşınqayırma, mexanika və idarəetmə prosesləri bölməsi, energetika ixtisası üzrə xarici üzv seçilib.

Bununla bağlı Rusiya Elmlər Akademiyasının (REA) Energetika, maşınqayırma, mexanika və idarəetmə prosesləri bölməsinin akademik-katibi, energetika sahəsində görkəmli mütəxəssis akademik Vladislav Xomiç AMEA-nın akademik-katibi, ETN Fizika İnstitutunun baş direktoru akademik Arif Həşimova təbrik teleqramı ünvanlayıb.

Teleqramda deyilir:

*"Çox hörmətli Arif müəllim!*

*Rusiya Elmlər Akademiyasının xarici üzvü seçilməyiniz münasibətilə səmimi qəlbdən təbriklərimi qəbul edin!*

*Bu əlamətdar hadisə fundamental və tətbiqi elmi fəaliyyətdə əldə etdiyiniz nailiyyətlərin, elmin inkişafı və yüksəkixtisaslı kadrların yetişdirilməsinə verdiyiniz töhfələrin akademik ictimaiyyət tərəfindən layiqincə qiymətləndirilməsi, istedadınızın parlaq göstəricisidir.*

*Əziz Arif müəllim, elmin inkişafı naminə Sizə ürəkdən yeni-yeni nailiyyətlər, işinizdə ilham və uğurlar arzulayıram!*

*Əminəm ki, məqsədlərinizə çatmaq üçün Siz hələ çox zirvələr fəth edərək ətrafdakı insanları nümunəniz ilə ilhamlandıracaqsınız.*

*REA-nın həqiqi üzvü V.Y.Xomiç".*

Qeyd edək ki, Rusiyanın Dubna şəhərində yerləşən Birləşmiş Nüvə Tədqiqatları İnstitutunun direktoru REA-nın həqiqi üzvü Qriqori Trubnikov da akademik Arif Həşimova təbrik məktubu göndərib.

# AMEA əməkdaşları üçün dövlət satınalma prosedurları ilə bağlı təlimlərə başlanılıb

**Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elektron akt zalında AMEA-nın Rəyasət Heyəti aparatının, həmçinin elmi müəssisə və təşkilatlarının dövlət satınalmaları ilə məşğul olan əməkdaşları üçün ilk dəfə olaraq təlimlərə başlanılıb.**




Təlimlər Azərbaycan Milli Elmlər Akademiyası və "TST Təlim və Məsləhət" MMC-nin birgə təşkilatçılığı ilə keçirilir.

Bu sahədə peşəkar mütəxəssis olan Elçin Ərbaşiyev tərəfindən keçirilən təlimlərdə məqsəd dövlət satınalmaları sahəsində əməkdaşların bilik və bacarıqlarının təkmilləşdirilməsidir. Həftə ərzində iki dəfə baş tutacaq təlimlərdə "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının qüvvədə olan Qanununun tələblərinə uyğun qaydada ətraflı məlumat verilir. Təlim proqramı çərçivəsində iştirakçılara dövlət satınalmalarının hüquqi əsasları, satınalma planlarının hazırlanması, tender prosedurlarının mərhələləri, qiymətləndirmə meyarları, elektron satınalma sistemlərindən istifadə barədə geniş məlumat verilir. İnteraktiv formatda keçirilən təlimlərdə iştirakçılara real praktik nümunələr göstərilir və müzakirələr aparılır.

Son illərdə dövlət satınalmaları sahəsində normativ hüquqi aktlarda edilmiş bir sıra yeniliklərin tətbiqi əməkdaşlardan daha yüksək peşəkar yanaşma tələb edir. Bu baxımdan, təlimlərin təşkili həm hüquqi mexanizmlərin daha yaxşı mənimsənilməsi, həm də praktiki biliklərin artırılması baxımından mühüm əhəmiyyət daşıyır.

Təlim müddəti bir ay davam edəcək və yekunda iştirakçılar öyrəndikləri nəzəri biliklər əsasında imtahan verəcəklər. İmtahanda təqdim olunacaq suallar üzrə 60%-dən yuxarı nəticə göstərənlərə iştirak etdiyi tədbirə/təlimə dair tamamlama sertifikatı, 75%-dən yuxarı nəticə göstərənlərə isə fərqlənmə ilə tamamlama sertifikatı təqdim olunacaq.

REGİONDA ELMİ HƏYAT

# Şəkidə «Üzeyir Hacıbəylinin jurnalistik fəaliyyəti» mövzusunda tədbir

**AMEA-nın Şəki Regional Elmi Mərkəzində dahi Azərbaycan bəstəkarı, Şərqdə ilk operanın yaradıcısı, tanınmış ictimai xadim, dramaturq və pedaqoq, Xalq artisti, Dövlət mükafatları laureatı, Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü Üzeyir Hacıbəylinin anadan olmasının 140 iliyinə həsr olunan "Üzeyir Hacıbəylinin jurnalistik fəaliyyəti" mövzusunda elmi seminar keçirilib.**



Tədbir ölkə Prezidenti İlham Əliyevin "Üzeyir Hacıbəylinin 140 illiyinin qeyd edilməsi haqqında" 3 fevral 2025-ci il tarixli Sərəncamına əsasən təşkil olunub.

Elmi seminarı giriş sözü ilə açan Şəki REM-in elmi işlər üzrə direktor müavini fil.e.d., dos. Kamil Adışirinov dövlət başçısının müvafiq sərəncamından irəli gələrək dahi bəstəkar Üzeyir Hacıbəylinin 140 illiyinin ölkənin hər yerində yüksək səviyyədə qeyd olunduğunu diqqətə çatdırıb. O, Üzeyir Hacıbəylinin bəstəkarlıq fəaliyyəti, mədəniyyətimizə verdiyi töhfələrlə yanaşı, zəngin publisistik irsə malik olduğunu bildirib.

Sonra Şəki Regional Elmi Mərkəzin kiçik elmi işçisi Tural Adışirinov "Üzeyir Hacıbəyli və mətbuat: jurnalistik yol" mövzusunda məruzə ilə çıxış edib.

Məruzəçi Üzeyir Hacıbəylinin 1904-1920-ci illərdə publisistik fəaliyyət göstərdiyini, onun "Kaspi", "Həyat", "İrşad", "Həqiqət", "İqbal", "Yeni iqbal", "İttihad", "Azərbaycan", qəzetlərində, "Molla Nəsrəddin", "Məktəb" jurnallarında elm, tərəqqi, təhsil və tərbiyə məsələlərinə həsr edilmiş alovlu məqalələri ilə mətbuat tariximizdə silinməz izlər qoyduğunu bildirib. O, publisistin "Azərbaycan" qəzetindəki redaktorluq və jurnalistik fəaliyyətini Azərbaycan mətbuat tarixinin mühüm mərhələsi hesab edildiyini vurğulayıb.

Ədəbi-mədəni mühit, folklor və etnoqrafiya şöbəsinin rəhbəri Təranə Abdullayeva "Üzeyir Hacıbəyli sənəti və onun yetirmələri: Şəfiqə Axundova fenomeni" adlı məruzəsində milli bəstəkarlıq məktəbinin bünövrəsini qoymuş sənət idealı Üzeyir Hacıbəylinin izi ilə addımlayan, muğam və mahnı dünyasında öz dəsti-xətti olan, Şərqdə ilk opera yazan qadın Şəfiqə Axundovanın keşməkeşli həyat yolundan danışıb, bəstəkarın müəllimi ilə bağlı xatirələrinə işıq tutub.

Bildirib ki, müəllifi olduğu 600-dən çox mahnı və romans, musiqili komediyalar, tamaşalara bəstələnmiş musiqilər, "Gəlin qayası" operası Şəfiqə Axundovanın fenomen bir bəstəkar, layiqli tələbə olmasının bariz nümunəsidir.

Daha sonra Landşaftşünaslıq şöbəsinin rəhbəri, geol-min.ü.f.d. Hüseyn Mustafabəyli çıxış edərək Üzeyir Hacıbəylinin böyük vətənpərvər olduğunu vurğulayıb. Qeyd edib ki, Azərbaycan millətinin birliyinin yaranması musiqi ilə olub, bu ruhun qarşısında fəlsəfə də, ideologiya da cılız qalır. Bəstəkarın azərbaycançılıq məfkuresi ilə yoğrulmuş yüksək mənəvi-estetik dəyərə malik irsi gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunmasında misilsiz vasitədir.

Hüseyn Mustafabəyli əlavə edib ki, Üzeyir Hacıbəyli musiqisi həm dünyəvi, həm milli xarakterə malik unikal sənət abidəsidir, dünya musiqisi içərisində heç bir musiqiyə bənzəmir: "Çünki, onda tam milli ruh var, bəstəkarın "Koroğlu" uvertürasında sanki ağrılı-acılı millətin Allaha yalvarışı səslənir. Burada, eyni zamanda zəriflik, xəlqilik, aristokratlıq, incəlik, gözəllik, ali düşüncəlilik də var ki, bunlar da əsərin mürəkkəbliyini şərtləndirən əsas amildir".

# Şıxməzid arxeoloji kompleksində tədqiqatlar davam etdirilir

**Ağsu şəhəri ərazisində yerləşən Şıxməzid xanəgah kompleksi ilk dəfə 2012-ci ildə Ağsu arxeoloji ekspedisiyası tərəfindən "Narlı pir qəbiristanlığı"na baxış zamanı qeydə alınıb və ilkin arxeoloji tədqiqatlara başlanılıb.**



Bu tədqiqatlar nəticəsində 400 kv.m sahəni əhatə edən möhtəşəm tikinti qalıqları, eləcə də ətrafında qəbir kameralarının üstü saxsı səhənglərlə örtülmüş, bu baxımdan hələlik analoqu olmayan qəbir tipləri aşkarlanıb. Bu abidə barəsində ilkin olaraq XVI əsr Osmanlı müəllifi Xulvi, XIX əsr Azərbaycan şairi Seyid Əzim Şirvani, daha sonra isə Cəmil Aleksandroviç Nasifinin 1926-cı ilə aid qeydlərində məlumata rast gəlinir. Ağsudan 1,5 km şimalda yerləşən, Şamaxı Cümə məscidi ilə eyni dövrə və plan quruluşuna malik, dəfələrlə dağıdılıb təmir olunan bir məscid və türbədən bəhs olunur.

AMEA-nın Arxeologiya və Antropologiya İnstitutunun 2025-ci il çöl tədqiqat planına uyğun olaraq, 15 may tarixindən etibarən bir ay ərzində professor Qafar Cəbiyevin rəhbərliyi altında Ağsu arxeoloji ekspedisiyası tərəfindən Şıxməzid xanəgah kompleksində yenidən arxeoloji tədqiqatlar aparılıb. Qazıntı işləri zamanı kompleksin şərq kənarı boyunca iri ölçülü, səliqə ilə yonulmuş mədən daşlarından hörülmüş divar qalıqları tam şəkildə açılıb, həmin istiqamətdə əlavə altı ədəd hücrə-otaq qeydə alınaraq qismən öyrənilib. Hücrə-otaqlarla xanəgahın giriş portalı arasında yer səthindən 2,5 metr dərinlikdə cənub-şimal istiqamətində uzanan daha bir divar qalığı aşkar edilib. Qalınlığı bir metrdən çox olan bu divarın sonrakı dövrlərdə tikilmiş hücrə-otaqlara aid divarlarla əlaqəsi müşahidə edilməyib. Bu isə Şıxməzid xanəgah kompleksində tikintinin ən azı iki mərhələdə həyata keçirildiyini göstərir. Qeyd edək ki, tikinti zamanı möhkəmləndirici material kimi kirəcdən istifadə olunub.

Tədqiqatlar zamanı xüsusi maraq doğuran məsələlərdən biri iri ölçülü mədən daşlarının haradan və hansı üsullarla gətirilib yonulması məsələsidir. Qeyd etmək lazımdır ki, bəzilərinin uzunluğu 1-1,5 metr, eni və qalınlığı isə 60-80 sm olan bu blok daşların əldə edilməsi və işlənməsi kifayət qədər çətin olub. Digər diqqətçəkən məqam isə ərazidə mədəni təbəqənin xeyli kasıb olmasıdır. Ərazinin ayrı-ayrı nöqtələrində demək olar ki, mədəni qalıqlara rast gəlinmir. Bu hal kompleksin fasilələrlə fəaliyyət göstərməsi ilə əlaqələndirilə bilər. Hələlik öyrənilən sahədə aşkara çıxan tapıntılar əsasən az sayda kaşı fraqmentləri, bişmiş kərpic və məişət keramikasından ibarətdir.

Ekspedisiya xanəgah kompleksinə daxil olan "Narlı pir qəbiristanlığı" ərazisindəki Şıxməzid türbəsində də paralel olaraq tədqiqat işlərinə başlayıb. Yerli sakinlərin verdiyi məlumata görə, türbə XX əsrin 30-cu illərində "Allahsızlar cəmiyyəti" tərəfindən özülünə qədər dağıdılıb. 1989-cu ildə yerli memar Xanlar Hüseynovun layihəsi əsasında həmin özül üzərində dəmir-beton konstruksiya və onun üzərində ağ rəngli odadavamlı bişmiş kərpic divarlar inşa edilib. Divar özülə uyğun olaraq səkkizguşəli planla hörülüb. Türbənin içərisində iki nar ağacı mövcuddur ki, bu səbəbdən qəbiristanlıq "Narlı pir qəbiristanlığı" kimi tanınır. Burada dəfn olunan Şirvan xan ailəsi üzvləri barədə akademik Berjenin redaktorluğu ilə tərtib olunan şəcərədə də məlumat vardır.

Türbənin içərisi tullantılardan təmizlənərkən kərpic döşəmə aşkarlanıb. Türbənin mərkəzində qiblə istiqamətində qəbir yeri müəyyənləşdirilib. Qəbir yeri təmizlənərkən şərq tərəfində sərdabənin üzərində iki oyuq əmələ gətirən dörd əhəngdaşı plitəsi aşkar edilib. Həmin oyuqların qarşısından sərdabənin bişmiş kərpicdən ibarət tağlı hissəsi üzə çıxıb. Sərdabənin içərisində aparılan tədqiqatlar zamanı müxtəlif dövrlərə aid qarışıq materiallar aşkar olunub. Tapıntılar əsasən çoxsaylı səkkizguşəli bütöv kaşı və fraqmentləri, saxsı qabların hissələri, dəmir mismar, mıx, nal, alətlər, çoxlu mis sikkələr və şüşə qab nümunələrindən ibarətdir.

Türbənin qapısının şərq tərəfdə olduğu ehtimal edildiyi üçün orada 2x2 metr ölçüdə yoxlama qazıntısı qoyulub. Yer səthindən 70 sm dərinlikdə aşkar edilən və üzərində pilləkən funksiyası daşıyan blok daş olan kərpic döşəmə (uzunluğu 1 metr, eni 0,6 metr) qapının həmin istiqamətdə olduğunu təsdiqləyib. Qazıntı 1,8 metr dərinliyə qədər aparılaraq divarın özül hissəyə qədər tikinti xüsusiyyətləri öyrənilib. Burada bir ədəd mis pul, çoxlu dəmir mismar və mıxlar, kaşı və keramika fraqmentləri, müxtəlif bəzək nümunələri aşkarlanıb.

Yuxarıda deyilənlər bütövlükdə Azərbaycanın İslam dövrü arxeoloji irsinin yeni dövrün çağırışları kontekstində dərindən və hərtərəfli araşdırılması baxımından çox mühüm elmi əhəmiyyət kəsb edir.

AZƏRBAYCAN MİLLİ MƏTBUATI - 150

# Ölkəmizdə mətbuatın inkişafı daim diqqət mərkəzindədir



**2025-ci il Azərbaycan mətbuatı tarixində ən əlamətdar illərdən biridir. Bu il milli mətbuatımızın 150 ili tamam olur. Azərbaycanda milli mətbuatın əsası 1875-ci ildə "Əkinçi" qəzetinin nəşri ilə qoyulmuşdur. Həmin vaxtdan indiyədək mətbuatımız çoxillik şərəfli yol keçmiş, cəmiyyətimizin maariflənməsində, milli kimliyimizin formalaşmasında, söz azadlığının təmin olunmasında əvəzsiz rol oynamışdır. Bu il mətbuatımızn 150 illik yubileyinin qeyd olunması mətbuatımızın müasir dövrdəki fəaliyyətinin qiymətləndirilməsi, yeni vəzifələrin müəyyənləşdirilməsi, eləcə də gələcək nəsillər üçün mətbu irsimizin qorunub saxlanılması baxımından xüsusi əhəmiyyətə malikdir.**

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyev aprelin 25-də "Azərbaycan milli mətbuatının 150 illik yubileyinin keçirilməsi haqqında" Sərəncam imzalamışdır. Sərəncamda görkəmli ziyalı, maarifçi-publisist Həsən bəy Zərdabinin Azərbaycan dilində nəşr etdirdiyi "Əkinçi" qəzetinin milli mətbuatımızın ilk nümunəsi və ölkəmizin həyatında mühüm hadisə kimi tarixə düşdüyü qeyd olunmuşdur.

Milli mətbuatımızın qürur yeri olan "Əkinçi" fəaliyyət göstərdiyi cəmi iki il ərzində azərbaycançılıq, müasirləşmə, milli özünüdərk kimi bəşəri dəyərləri təbliğ etmiş, Azərbaycanda müstəqil demokratik mətbuatın təməlini formalaşdırmışdır. "Əkinçi"nin ardınca "Molla Nəsrəddin", "Ziya", "Kaspi", "Kəşkül", "Həyat" və s. kimi qəzetlər, jurnallar mətbuatımızın inkişafında, cəmiyyətin quruculuğu prosesində əvəzsiz rol oynamışlar.

Ölkəmizdə mətbuatın inkişafında Ulu Öndər Heydər Əliyevin müstəsna xidmətləri olmuşdur. Ümummilli Lider hakimiyyətdə olduğu bütün dövrlərdə jurnalistikanın cəmiyyətin inkişafında rolunu yüksək qiymətləndirmiş, kütləvi informasiya vasitələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində kompleks tədbirlər həyata keçirmişdir. Ümummilli Lider Heydər Əliyev hər zaman ölkəmizdə media orqanlarının sərbəst fəaliyyəti, jurnalistlərin söz və fikir azadlığının təmin edilməsi, mətbuat problemlərinin həlli istiqamətində təşəbbüs göstərmiş, mühüm qərarlar qəbul etmişdir. Ulu Öndər mətbuatımızın inkişafı yönündə 10-dan çox sərəncam və fərman imzalamışdır. 1999-cu ildə "Kütləvi informasiya vasitələri haqqında" qanunun qəbul edilməsi, eləcə də 1998-ci Azərbaycanda senzuranın ləğv olunması ilə bağlı sərəncamın imzalanması Heydər Əliyevin mətbuatımızın tərəqqisi üçün ən böyük töhfələrindən hesab edilə bilər.

Dövlət başçısının sözügedən sərəncamında da Ümummilli Liderin mətbuatımızın inkişafında roluna dair mühüm faktlar yer alıb. Sərəncamda qeyd olunub ki, Heydər Əliyev medianın inkişafını prioritet vəzifələrdən biri hesab etmiş, onun fəaliyyətini tənzimləyən qanunvericilik bazasının formalaşdırılması, inkişafını əngəlləyən süni maneələrin aradan qaldırılması istiqamətində ardıcıl qərarlar qəbul etmiş, dövlət-media münasibətlərində mütərəqqi ənənələrin əsasını qoymuşdur.

Prezident İlham Əliyev Ulu Öndər Heydər Əliyevin bu sahədə fəaliyyətini uğurla davam etdirir. Dövlət başçısının mətbuatın inkişafı üçün göstərdiyi xüsusi diqqət və qayğı, jurnalistika sahəsində problemlərin həlli istiqamətində atdığı addımlar, qəbul etdiyi əhəmiyyətli qərarlar KİV-lərin fəaliyyətinin genişlənməsinə, jurnalistlərin peşəkarlıq səviyyəsinin yüksəlməsinə səbəb olub.

Sərəncamda, həmçinin müasir dövrdə Azərbaycan mətbuatında müşahidə olunan yeni tendensiyalar, IV Sənaye İnqilabı, süni intellekt və rəqəmsal texnologiyaların təsirilə bu sahədə baş verən dəyişikliklərə də toxunulub, Azərbaycan mediasının qarşısında yeni vəzifələrin müəyyənləşdirildiyi qeyd olunub: "Rəqəmsallaşma, süni intellekt, media savadlılığının yüksəldilməsi və s. mediamızın inkişaf perspektivlərini müəyyənləşdirəcək məsələlərdir. Azərbaycan mediası müasir tendensiyaları nəzərə almaqla dövlətin maraqlarını hər zaman uca tutmalı, ölkəmizin beynəlxalq münasibətlər sistemində yeri və rolu, eyni zamanda həyatımızda baş verən pozitiv dəyişikliklərlə bağlı ictimaiyyətimizin məlumatlandırılması sahəsində daha fəal olmalıdır".

Məlumdur ki, Azərbaycan jurnalistləri 44 günlük Vətən müharibəsi dövründə həm ön, həm də arxa cəbhədə Azərbaycan həqiqətlərinin operativ işıqlandırılması üçün böyük əzmkarlıqla, yorulmadan çalışıblar. 3 il sonra - 2023-cü il 19 sentyabr tarixində Azərbaycan Ordusunun Qarabağda həyata keçirdiyi lokal xarakterli antiterror tədbirləri nəticəsində Qarabağda erməni separatizminə son qoyulub. Bu çətin və şərəfli tarixi mərhələdə də Azərbaycan mətbuatı yüksək peşəkarlıq, fədakarlıq nümayiş etdirib, Vətənimizin ədalətli mübarizəsi, eləcə də Ermənistanın hərbi-siyasi rəhbərliyinin xalqımıza qarşı törətdiyi müharibə cinayətləri haqqında dünya ictimaiyyətinə obyektiv məlumatları ötürüblər. Mətbuatımız ötən il 149 yaşını ilk dəfə olaraq ərazi bütövlüyünü və suverenliyini tam bərpa etmiş bütöv Azərbaycanda böyük sevinc və qürurla qeyd edib.

Sərəncamda da qeyd olunduğu kimi, müharibə dövründə mediamız əsl vətənpərvərlik, həmrəylik nümunəsi ortaya qoymuş, düşmənin və onun havadarlarının saxta məlumatlarının ifşası üçün xüsusi səy göstərmiş, Milli Ordumuzun, əsgər və zabitlərimizin rəşadəti, qəhrəmanlığı ilə bağlı zəngin salnamə yaratmışdır.

Vətən müharibəsindən sonra bütün sahələrdə olduğu kimi, mətbuat sferasında da yeni reallıqların yaranması 2022-ci il fevralın 8-də dövlət başçısı tərəfindən "Media haqqında" Qanun təsdiqlənməsi ilə nəticələnib. Demokratik məzmunu ilə diqqət cəlb edən bu qanun Azərbaycan mətbuatının tərəqqisi üçün yeni imkanlar açıb, mühüm vəzifələr müəyyənləşdirib. "Media haqqında" Qanunun qəbul edilməsi media fəaliyyətinin rəqəmsal dövrün çağırışlarına uyğunlaşdırılmasını və ölkəmizin informasiya mühitinin sağlamlaşdırılmasını hədəfləmişdir" - deyə, Azərbaycan milli mətbuatının 150 illik yubileyinin keçirilməsi haqqında Sərəncamda vurğulanıb.

Sərəncamda milli mətbuatın Azərbaycanın ictimai-siyasi və mədəni həyatındakı yerini, müasir cəmiyyət quruculuğu və ölkəmizin beynəlxalq nüfuzunun daha da yüksəldilməsi sahəsində töhfələrini nəzərə alaraq milli mətbuatımızın 150 illik yubileyinin ölkəmizdə geniş qeyd olunması qərara alınıb. Sözügedən sənəd dövlət başçısının Azərbaycan mətbuatına göstərdiyi diqqət və qayğıyla yanaşı, jurnalistika sahəsində fəaliyyət göstərən hər kəsin qarşısında yeni prioritetlərin müəyyənləşdirildiyini göstərir, jurnalistləri öz işini daha məsuliyyətlə yerinə yetirməyə, səmərəli fəaliyyət göstərməyə səsləyir.

Xatırladaq ki, 2025-ci ildə Azərbaycanın ən böyük elm ocağı olan AMEA-nın yaranmasının 80, Azərbaycanın ilk veb-saytı - science.gov.az-ın isə yaranmasının 30 ili tamam olur. AMEA 80 illik fəaliyyəti ərzində uğurla fəaliyyət göstərərək Azərbaycan elminin dayağına çevrilib, çoxaspektli, fundamental tədqiqatların mərkəzi olub, elmimizi bütün dünyada təmsil edib.

Ölkə jurnalistikasında xüsusi yeri olan AMEA mətbuatı - science.gov.az da bu illər ərzində Azərbaycanda dövlət tərəfindən elmdə aparılan islahatları, bu sahənin inkişafı sahəsində əldə edilmiş nailiyyətləri təbliğ edib. Portal bu gün də tarixi ənənələrə sadiq qalaraq Azərbaycanda elm və ictimaiyyət arasında körpü rolunu oynayır, elm və medianın qarşılıqlı əlaqəsini gücləndirir.

Bu gün AMEA akademik İsa Həbibbəylinin rəhbərliyi altında, yeni mərhələdə uğurla fəaliyyət göstərir, zəngin elmi ənənələrini müasir dövrün tələblərinə uyğun şəkildə davam etdirir. Akademik İsa Həbibbəyli jurnalistikanın inkişafına xüsusi önəm verərək AMEA-da mətbuatın müstəqil və peşəkar fəaliyyəti istiqamətində mühüm qərarlar qəbul edir, mütəmadi toplantılar keçirir.

Təbii ki, bir-biri ilə bağlı olan bütün bu tarixi hadisələr, yubileylər kontekstində elm və informasiya cəmiyyətinin tərəqqisi, jurnalistikamızın yeni mərhələdə inkişafı da böyük məna kəsb etməyə başlayır. Dövlət başçısının milli mətbuatımızın 150 illik yubileyinin keçirilməsi haqqında Sərəncamının əhəmiyyəti daha da artır. İnanırıq ki, bu mühüm sənəd ölkə jurnalistikasının gələcək inkişafı üçün yeni üfüqlər açacaq, söz və ifadə azadlığının daha da möhkəmləndirilməsi, zəngin mətbu irsimizin öyrənilməsi, təbliği və gənc nəsillərə çatdırılması istiqamətində innovativ layihələrin həyata keçirilməsinə şərait yaradacaq.

**Nərgiz QƏHRƏMANOVA**
**AMEA-nın Rəyasət Heyəti aparatının İctimaiyyətlə əlaqələr, mətbuat və informasiya şöbəsinin Elektron informasiya sektorunun müdiri**

YENİ NƏŞRLƏR

## «Heydər Əliyev Əlyazmalar İnstitutu əməkdaşlarının tədqiqatlarında»




**Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun Elmi şurasının qərarı ilə Biblioqrafiya şöbəsinin baş biblioqrafı Təranə Cavadovanın tərtibçisi olduğu "Heydər Əliyev AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu əməkdaşlarının tədqiqatlarında" adlı biblioqrafik göstəricisi işıq üzü görüb.**

Biblioqrafik göstəricidə Ümummilli Lider Heydər Əliyevin həyat və fəaliyyəti haqqında AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun əməkdaşlarının kitablarının, elmi jurnallarda, dövri mətbuat mənbələrində və məcmuələrdə çap olunmuş əsərlərinin annotasiyalı təsvirləri verilmişdir.

Qeyd edək ki, yeni nəşrin elmi redaktoru AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun direktoru akademik Teymur Kərimli, redaktoru Biblioqrafiya şöbəsinin müdiri Qutiyera Cəfərova, informasiya-resurs təminatına kömək edən Nigar İbrahimova, dizaynerləri isə Vüqar Hacıyev və İsmət Cəfərovdur.

## «Real tarix və «böyük Ermənistan» uydurması»



**"Real tarix və "böyük Ermənistan" uydurması" kitabının onlayn versiyası 11 dildə - Azərbaycan, türk, rus, ingilis, gürcü, ərəb, fars, alman, ispan, fransız və ibri dillərində Azərbaycan Tarixi Elektron Kitabxanasında (https://lib.az/category/39) yerləşdirilib.**

Əsərin müəllifi AMEA-nın müşaviri, akademik Yaqub Mahmudovdur.

Kitabda ilk mənbələr əsasında ermənilərin Kiçik Asiyaya Balkan yarımadasından köçüb gəldikləri, mənşəcə qədim frigiyalılarla qohum etnos olduqları və Asiya qitəsinin aborigen əhalisi olmadıqları göstərilir. İlk dəfə olaraq sübut edilir ki, müasir ermənilər "Armeniya", "armyane", "erməni" adlarına Şərqi Anadoluya köçüb gəldikdən sonra sahib çıxıblar. Tarixdə heç zaman "böyük Ermənistan" adlanan dövlət qurumu olmayıb. "Böyük Ermənistan" anlayışı Azərbaycan, Türkiyə və Gürcüstan torpaqlarına sahib çıxmaq məqsədilə erməni saxtakarları tərəfindən sonradan uydurulub.

## «Şimali Azərbaycanın Rusiya tərəfindən işğalı arxiv sənədlərdə (1813-1828)»

**AMEA-nın Lənkəran Regional Elmi Mərkəzinin (LREM) elmi katibi, tar.ü.f.d. Cəmil Quliyevin "Şimali Azərbaycanın Rusiya tərəfindən işğalı arxiv sənədlərdə (1813-1828)" adlı monoqrafiyası çapdan çıxıb.**




Monoqrafiya cənab Prezident İlham Əliyevin verdiyi Sərəncamlardan irəli gələn vəzifələrin icrasının elmi təhlilinin geniş ictimaiyyətə təqdim olunması məqsədilə AMEA-nın illik plan işlərinə uyğun olaraq hazırlanmışdır. Kitab AMEA-nın yaradılmasının 80 illiyinə həsr olunmuşdur. Tarixi hadisələrlə zəngin olan XVIII əsrin II yarısı Azərbaycanın dövlətçilik tarixində mühüm bir dövrü təşkil edir. 1813-cü il Gülüstan və 1828-ci il Türkmənçay müqavilələri ilə tarixi Azərbaycan torpaqlarının Qacarlar İranı və Çar Rusiyası tərəfindən işğalı arxiv sənədləri əsasında elmi mənbələrlə təhlil olunaraq araşdırılmışdır.

Lənkəran REM-in Elmi şurasının qərarı ilə çap olunan monoqrafiyanın Elmi redaktoru və ön sözünün müəllifi, Milli Məclisin Elm və təhsil komitəsinin sədri, Bakı Dövlət Universitetinin "Mənbəşünaslıq, tarixşünaslıq və metodika" kafedrasının müdiri, tarix elmləri doktoru, professor Anar İsgəndərovdur. Rəyçilər Bakı Dövlət Universitetinin "Qafqaz xalqları tarixi" kafedrasının müdiri tarix elmləri doktoru, professor İradə Hüseynova və AMEA-nın A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun Şimali Azərbaycanın XIX-XX əsrin əvvəlləri tarixi şöbəsinin müdiri, Elm üzrə Dövlət mükafatı laureatı, tarix üzrə fəlsəfə doktoru, professor Hacı Həsənovdur.

Kitabda Azərbaycan Milli Elmlər Akademiyasının 80 illiyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı və AMEA prezidenti akademik İsa Həbibbəylinin "Azərbaycan Milli Elmlər Akademiyası: inkişaf mərhələləri və müasir dövr" adlı məqaləsi də yer almışdır.

Tarix üzrə fəlsəfə doktoru Cəmil Quliyevin oxuculara təqdim etdiyi bu monoqrafiya 5503.02 "Vətən tarixi" ixtisası üzrə elmi-tədqiqatlarla məşğul olan alimlər, mütəxəssislər, dissertantlar üçün əhəmiyyətli mənbədir.

**Nəsimi adına Dilçilik İnstitutu elmin inkişafı üzrə Milli Strategiya və Dövlət Proqramını dilçiliyin inkişaf konsepsiyası əsasında həyata keçirən, kompleks elmi-tədqiqatları özündə birləşdirən, səmərəli elmi-tədqiqat fəaliyyəti və kadr potensialı ilə yaxın və uzaq xaricdə tanınan dilçilik mərkəzidir. Dilçilik İnstitutunun tarixi 1932-ci il iyul ayının 10-da Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin qərarı ilə Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutunun tərkibində Dil, Ədəbiyyat və İncəsənət İnstitutunun təşkil edilməsi ilə başlanır. Həmin tarixə qədər Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutunun tərkibində dilçilik, ədəbiyyat və incəsənət bölməsində dilçilik sektoru fəaliyyət göstərirdi. 1932-ci ildə Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutu əsasında təşkil edilmiş SSRİ Elmlər Akademiyası Zaqafqaziya Filialının Azərbaycan Şöbəsində, daha sonra 1935-ci ilin oktyabrında SSRİ EA Azərbaycan Filialı yaradıldıqda da onun tərkibində Dil və Ədəbiyyat Elmi-Tədqiqat institutları fəaliyyət göstərmişdir. 27 fevral 1936-cı ildə birləşmiş Ədəbiyyat və Dil İnstitutu yaradılmışdı. Bu institutda "Azərbaycan dili", "Azərbaycanda yaşayan milli azlıqların dilləri", "Lüğət-terminologiya" adı ilə 3 dilçilik şöbəsi var idi.**

NƏSİMİ adına DİLÇİLİK İNSTİTUTU - 85

# Azərbaycan dilçilik elminin mərkəzi

1945-ci ildə Azərbaycan Elmlər Akademiyası təsis edildikdə müstəqil Dilçilik İnstitutu yaradılmışdır. Yeni yaranmış institut dörd şöbədən (Müasir Azərbaycan dili, Azərbaycan dili tarixi, Azərbaycan dialektologiyası və Lüğətçilik) ibarət idi. Dilçilik İnstitutunun ilk direktoru Miryusif Mirbabayev olmuşdur. 1951-ci ildə Dilçilik və Ədəbiyyat İnstitutları birləşdirilmiş,1969-cu ilin sentyabrından isə Dilçilik İnstitutu müstəqil fəaliyyətə başlamışdır. 1973-cü ildə Dilçilik İnstitutuna böyük Azərbaycan şairi İmadəddin Nəsiminin adı verilmişdir. 18 may 1998-ci ildə Nəsimi adına Dilçilik İnstitutu Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən dövlət müəssisəsi kimi qeydə alınmışdır (şəhadətnamə № D-182).

1969-cu ildən 1987-ci ilədək instituta akademik M.Ş.Şirəliyev, daha sonra 1988-ci ildə institutun direktoru vəzifəsinə Azərbaycan MEA-nın müxbir üzvü fil.e.d., prof. Zərifə İsmayıl qızı Budaqova seçilmiş və iki il müddətində bu zəngin tarixi olan elmi-tədqiqat müəssisəsinə rəhbərlik etmişdir. 1990-2011-ci illərdə isə Dilçilik İnstitutunun direktoru AMEA-nın həqiqi üzvü, Əməkdar elm xadimi, Dövlət mükafatı laureatı, fil.e.d., professor Ağamusa Ağası oğlu Axundov olmuşdur. 2012-2013-cü illərdə institutun direktoru vəzifəsini, fil.e.d., professor Fəxrəddin Yadigar oğlu Veysəlli icra etmişdir. 2013-2015-ci illərdə Dilçilik İnstitutuna görkəmli türkoloq-dilçi, AMEA-nın həqiqi üzvü, Əməkdar elm xadimi, filologiya elmləri doktoru, professor Tofiq İsmayıl oğlu Hacıyev, 2015-2021-ci illərdə isə filologiya elmləri doktoru, akademik Möhsün Nağısoylu rəhbərlik edib. 2021-ci ildən artıq instituta AMEA Rəyasət Heyətinin qərarı ilə filologiya elmləri doktoru, professor Nadir Məmmədli rəhbərlik edir.

Yarandığı ildən indiyə qədər Dilçilik İnstitutu Azərbaycanda dilçilik elminin mərkəzinə çevrilmiş, Azərbaycan dilinin müasir vəziyyətinin, onun tarixinin tədqiqi və Azərbaycan dilinin təbliği sahəsində mühüm işlər görmüşdür. İnstitutda elmi və elmi-təşkilati işin yüksək səviyyədə təşkil edilməsində və institutun qarşısında duran vəzifələrin uğurla həll edilməsində Miryusif Mirbabayev, Məmmədağa Şirəliyev, Əbdüləzəl Dəmirçizadə, Əliheydər Orucov, Zərifə Budaqova, Afad Qurbanov, Vaqif Aslanov, Musa İslamov, Aydın Məmmədov, Müseyib Məmmədov, Ağamusa Axundov, Nizami Cəfərov, Qəzənfər Kazımov, Rəhilə Məhərrəmova, Aydın Ələkbərov, Tofiq Hacıyev və başqa görkəmli dilçi alimlərin böyük xidmətləri olmuşdur.

İnstitutun müxtəlif illərdə hazırladığı «Azərbaycan dilinin qrammatikası» (2 cilddə), «Azərbaycan dilinin izahlı lüğəti» (4 cilddə), «Rusca-azərbaycanca lüğət» (3 cilddə), «Müasir Azərbaycan dili» (3 cilddə), «Azərbaycan ədəbi dilinin tarixi» (2 cilddə), «Azərbaycan dialektologiyasının əsasları», «Azərbaycan dilinin dialektoloji lüğəti» , «Azərbaycan dilinin dialektoloji atlası», «Azərbaycan dilinin orfoqrafiya lüğəti», "Azərbaycanca-rusca frazeologiya lüğəti" və s. fundamental əsərlər yalnız Azərbaycan dilçiliyi üçün deyil, ümumiyyətlə, respublikamızın mədəni həyatı üçün əlamətdar hadisə kimi qiymətləndirilə bilər. Azərbaycan dilinin ilk akademik qrammatikası, onun ardınca ikicildlik akademik qrammatikası məhz Dilçilik İnstitutunun alimlərinin səmərəli fəaliyyəti nəticəsində işıq üzü görmüşdür. 1948-ci ildə o dövrün ən yüksək dövlət mükafatlarından olan Stalin mükafatına layiq görülmüş dördcildlik "Rusca-azərbaycanca lüğət" türk xalqlarının ikidilli lüğətlərinin tərtibi üçün nümunə olmuşdur. 1970-ci ildə SSRİ EA-nın və Azərbaycan SSR EA-nın orqanı olan "Sovetskaya tyürkologiya" kimi ümumittifaq elmi-nəzəri jurnalın nəşri Dilçilik İnstitutunda gerçəkləşmişdir. Keçmiş Sovetlər Birliyində və türkdilli ölkələr arasında dialektoloji atlasların yaradılması təcrübəsi ilk dəfə məhz Azərbaycan dilçiliyi ilə bağlıdır. Hələ 1990-cı ildə Nəsimi adına Dilçilik İnstitutunda akademik Məmmədağa Şirəliyevin rəhbərliyi ilə ilk dialektoloji atlasın nəşr olunması dünya linqvistikasında böyük tarixi hadisə idi.

İndiyə qədər institut əməkdaşlarından 3 nəfər AMEA-nın həqiqi üzvü, 2 nəfər Əməkdar elm xadimi, 1 nəfər Əməkdar müəllim, 1 nəfər Dövlət Mükafatı laureatı, 2 nəfər Azərbaycan Respublikası Prezidentinin təqaüdçüsü olmuş, 2 nəfər "Şöhrət" ordeni, 2 nəfər "Tərəqqi" medalı ilə təltif edilmişlər. İnstitutun 3 əməkdaşı Türk Dil Qurumunun şərəf üyesi, iki əməkdaşı isə müxbir üzvü seçilmişdir. Prezident İlham Əliyevin 2012-ci il 29 may tarixli sərəncamı ilə Nəsimi adına Dilçilik İnstitutunun maddi-texniki bazasının gücləndirilməsi məqsədilə 2 mln. manat vəsait ayrılmışdır.

İnstitut Azərbaycan dilinin qaynaqlarının və inkişaf qanunauyğunluqlarının öyrənilməsini prioritet istiqamət götürmüşdür. İnstitutun fəaliyyətində Azərbaycan dilinin müasir vəziyyəti, funksional qrammatika və üslublar, nitq mədəniyyəti məsələlərinin öyrənilməsi, Azərbaycan dilinin tarixi inkişaf mərhələlərinin, qədim yazılı abidələrin və ayrı-ayrı klassiklərin dilinin öyrənilməsi, Azərbaycan dilinin dialekt və şivələrinin (respublikada və respublikadankənar) tədqiqi və sistemləşdirilməsi, Azərbaycan dilinin leksikasının tədqiqi, çeşidli (izahlı, orfoqrafiya, ikidilli və çoxdilli tərcümə, frazeoloji, terminoloji və s.) lüğətlərin hazırlanması, elmi-texniki terminologiyanın linqvistik məsələlərinin araşdırılması, Azərbaycan onomastik vahidlərinin tədqiqi, onomastik vahidlərin stratifikasiya və tipologiyası problemləri, onomastik lüğətlərin tərtibi, türk dillərinin fonetika, qrammatika, leksika məsələlərinin müqayisəli tədqiqi, Azərbaycan dilinin dünya dilləri və Azərbaycanda yaşayan azsaylı xalqların dilləri ilə qarşılıqlı əlaqələrinin öyrənilməsi, Azərbaycan dilinin mühəndis (kompüter) dilçiliyi metodları ilə öyrənilməsi, maşın tərcüməsi problemləri, statistik lüğətlərin tərtibi məsələləri, klassiklərin və abidələrin dilinin statistik metodlarla tədqiqi kimi mühüm məsələlər önəmli yer tutur. İnstitut uzunmüddətli səmərəli fəaliyyəti nəticəsində müasir Azərbaycan dilinin, onun tarixinin geniş və əhatəli mənzərəsini yaratmağa, Azərbaycan dilçiliyinin inkişaf istiqamətlərini müəyyənləşdirməyə nail olmuşdur. Azərbaycanda dilçi kadrların hazırlanması sahəsində də institutun mühüm rolu vardır. İnstitutda ölkənin ən çox ehtiyac hiss etdiyi nəzəri və tətbiqi dilçiliyə aid aktual mövzulara həsr olunmuş kitablar nəşr edilmiş, müasir Azərbaycan dili, Azərbaycan ədəbi dili tarixi, leksika, leksikoqrafiya və terminologiya, dialekt və şivələrin fonetika, qrammatika və leksikası, türk dillərinin, Azərbaycan dilinin dünya dilləri ilə müqayisəli tədqiqinin bir sıra aktual problemlərinin öyrənilməsi sahəsində mühüm uğurlar qazanılmışdır. Dördcildlik "Azərbaycan ədəbi dili tarixi", "Kitabi-Dədə Qorqud" dastanının izahlı lüğəti", üçcildlik "Azərbaycan dilinin tezlik lüğəti"nin I cildi, "Azərbaycan dilinin dialektoloji lüğəti" (2 cildlik və 1 cildlik), "Тюркские согласные: анлаут и комбинаторика", "Azərbaycan dilinin Dərbənd dialekti", "Dialekt leksikasında alınma sözlər", "Azərbaycan dilinin etnoqrafik leksikası", "Azərbaycan toponimlərinin ensiklopedik lüğəti" (3 cilddə), "Türk dillərinin tarixi-müqayisəli leksikologiyası məsələləri" (2 cilddə), "Azərbaycan dilinin frazeoloji lüğəti", "Kitabi-Dədə Qorqudun statistik təhlili", "Mətnin formal təhlili sistemi", "Mətnin avtomatik-sintaktik təhlili və sintezi", "Система деепричастных форм глагола в тюркских языках (в сравнительно-историческом освещении)", "Грамматический статус и семантика причастий в тюркских языках", "Инфинитивы и имена действия в тюркских языках", "Психолингвистика: освоение детми иностранных языков", "Azərbaycan dilinin tarixi. Ən qədim dövrlərdən XIII əsrə qədər", "Altay dillərinin qohumluğu məsələsi", "Afaziya: neyrolinqvistik tədqiqat", "Məhəmməd Füzulinin nəzm əsərlərinin əlifba tezlik sözlüyü", "Azərbaycan qəzet dilinin tezlik lüğəti", "Azərbaycan dilinin əks əlifba lüğəti", "Rumınca-azərbaycanca, azərbaycanca-rumınca lüğət", "Azərbaycan və ingilis dillərində zaman kateqoriyası", "Dilçiliyin nəzəri problemləri", "Temporal leksika", "Türk dillərində sifət", "Riyazi dilçilik", "Azərbaycan və ingilis dillərində zaman kateqoriyası", "Linqvo-psixoloji vəhdət nəzəriyyəsi", "Azərbaycan dilinin Naxçıvan dialektoloji atlası", "Azərbaycan dilinin Qarabağ və Şərqi Zəngəzur dialektoloji atlası", "Azərbaycan dilinin funksional qrammatikası" (4 cilddə), "Dillərin leksik-qrammatik səviyyədə tədqiqinin linqvopsixoloji problemləri", "Dünya dillərində homogen sözlər", "Türk dillərinin qədim leksikası", "Türk dillərində isim köklərində leksik-semantik inkişaf", "Azərbaycan terminoqrafiyasının konseptual əsasları", "Mirzə Kazımbəyin "Türk-tatar dilinin ümumi qrammatikası"nın tərcümə, tədqiq və şərhi" , "Pietro Della Valle. Türk dilinin qrammatikası. Azərbaycan dilinin orijinal qrammatikası. 1620. Tərcümə, tədqiq və şərh", "Mirzə Məhəmməd Əfşar. Fənni-sərfü nəhvi-türki", "Türk dillərində teonim və etnonimlər", "Sanskrit dilində türk sözləri. Arilərin türk mənşəyi", "Türk, urartu, alban etnolinqvistik uyğunluqları", "Latın dili haqqında", "Kompüter dilçiliyi", "Türk dillərinin milli korpusları", "Müasir Azərbaycan dili" (3 cilddə), "Türk mənşəli arxaizmlər lüğəti" (3 cilddə), "Məzhəri üt - türki", "Türk dillərinin funksional morfologiyası", "Divanü lüğat - it türk" (3 cilddə) və s. əsərlər bu qəbildəndir. İlk dəfə olaraq linqvo-psixoloji vəhdət nəzəriyyəsinin tətbiqi ilə Azərbaycan dilini öyrənmək istəyən əcnəbilər üçün dərs vəsaitləri dəsti hazırlanmışdır. Belə ki, rus və ingilis dilli əcnəbilər üçün nəzərdə tutulan "Salam Azərbaycan" adlı bu vəsaitlərin A1-A2 və B1-B2 səviyyələri üzrə 10 kitab artıq çap olunaraq istifadəçilərə təqdim edilmişdir. Həmin vəsaitlərin C1-C2 səviyyələri üzrə kitabların hazırlanması işi davam edir.

İnstitutun əməkdaşları beynəlxalq və respublika səviyyəli elmi konfrans və simpoziumlarda Azərbaycan dilçiliyini ləyaqətlə təmsil etmişlər. Müxtəlif ölkələrdəki dilçilik mərkəzləri ilə sıx əlaqələr yaranmışdır. Xüsusilə Türk Dil Qurumu ilə mütəmadi olaraq ortaq tədbirlər və layihələr həyata keçirilir. 2021-ci ildən professor Nadir Məmmədli Dilçilik İnstitututuna rəhbərlik etdikdən sonra Türk Dil Qurumu ilə əlaqələr güclənmişdir. İnstitutunun direktoru, professor Nadir Məmmədli 2023-cü ildə Türk Dil Qurumunun şərəf üyesi seçilmişdir. 2023-cü ildə ilk dəfə olaraq Türk Dil Qurumu 500-ə yaxın kitabı Dilçilik İnstitutuna hədiyyə etmişdir. İnstitut bir sıra dövlət əhəmiyyətli proqramların (latın qrafikalı Azərbaycan əlifbası ilə kütləvi nəşrlərin həyata keçirilməsi, Azərbaycan Milli Ensiklopediyası üçün oçerklərin yazılması, coğrafi adların əcnəbi dillərə transliterasiyası, Azərbaycan dilinin korpusunun yaradılması, elektron transliterasiya sisteminin yaradılması və s.) yerinə yetirilməsində fəal iştirak edir.

Prezident İlham Əliyevin 2013-cü il 9 aprel tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı" ana dilimizin hərtərəfli inkişafı və tətbiqi baxımından xüsusilə böyük əhəmiyyət daşıyır. Ölkəmizdə dilçilik sahəsində fundamental araşdırmaların mərkəzi və aparıcı təşkilatçısı kimi tanınan Dilçilik İnstitutunda Prezidentin Azərbaycan dili haqqında 2013-cü il 9 aprel tarixli Sərəncamından irəli gələn vəzifələri həyata keçirmək istiqamətində bir sıra işlər görülüb. İlk növbədə, Dilçilik İnstitutunda bir neçə yeni şöbələr (Qədim dillər və mədəniyyətlər, Sosiolinqvistika və psixolinqvistika, Kompüter dilçiliyi, Monitorinq və nitq mədəniyyəti) yaradılıb. İnstitutda aparılmış struktur dəyişiklikləri Azərbaycan dilçiliyinin Avropa və dünya elminə inteqrasiyasına, ölkənin görkəmli dilçi alimlərinin beynəlxalq səviyyədə tanınmasına və nüfuz qazanmasına, eləcə də ədəbi dil tarixinin, qədim dillər və mədəniyyətlərin araşdırılmasına, ölkə ərazisində yaşayan azsaylı xalqların dillərinin öyrənilməsinə yol açır.

AMEA Nəsimi adına Dilçilik İnstitutunun təşkilatçılığı ilə "Kütəvi informasiya vasitələrinin dili", "Dərsliklərin dili", "Qərbi Azərbaycan toponimləri", "Heydər Əliyevin dil siyasəti və ana dilinin müasir problemləri" və s. mövzularda respublika konfransları keçirilmişdir. Həmçinin institutda "Sələflər və xələflər", "Ağamusa Axundov və Azərbaycan filologiyası", "Türkoloji elmi-mədəni hərəkatda ortaq dəyərlər və yeni çağırışlar", və s. mövzularda beynəlxalq elmi konfranslar keçirilmişdir. Nəsimi adına Dilçilik İnstitutunda Azərbaycan dilinin dövlət dili kimi ümumi informasiya bazası - www.azerbaycandili.az elektron portalı hazırlanmışdır.

AMEA-nın Nəsimi adına Dilçilik İnstitutu tərəfindən "Azərbaycan dilinin Naxçıvan dialektoloji atlası" nəşr edilib. Atlasın tərtibçiləri Z.Xasiyev, K.İmamquliyeva, K.Quliyeva, Q.Qəmbərova və M.Məmmədlidir. 2018-ci ildə Dövlət Proqramının icrası məqsədilə Akademiyanın Nəsimi adına Dilçilik İnstitutunda Eksperimental fonetik araşdırmalar laboratoriyası yaradılıb. İnstitutda sonuncu dəfə 2021-ci ildə 90 min sözlük "Azərbaycan dilinin orfoqrafiya lüğəti" çap olunub. Hal-hazırda Azərbaycan dilinin tətbiqi, ədəbi dil normalarının qorunması, dilimizin saflığının təmin olunması və digər istiqamətlərdə Dilçilik İnstitutunda mühüm tədqiqatlar aparılır. İlk dəfə olaraq "Azərbaycan dilinin orfoepiya normaları" hazırlanaraq, Nazirlər Kabinetinin 2021-ci il 18 iyun tarixli qərarına əsasən təsdiq edilib. Hal-hazırda isə çapdadır.

Dilçilik İnstitutunun direktoru, professor Nadir Məmmədlinin "Azərbaycan dilində işgüzar və akademik kommunikasiya" (Bakı, Elm və təhsil, 2021, 512 səh.) dərsliyi respublikamızda bu mövzu ilə bağlı əsas dərslik kimi tədris olunur. Professor Nadir Məmmədlinin geniş ön söz yazdığı və tərtib etdiyi "Məzhər üt-Türki" kitabı XVIII əsrə aid unikal nümunələrdən biridir. Azərbaycan dili və tarixi üçün bu qiymətli əlyazmanı Tehranın Fərhangiyan Universitetinin Fars dili və ədəbiyyatı fakültəsinin dosenti, əslən azərbaycanlı İxtiyar Bəxşi AMEA Nəsimi adına Dilçilik İnstitutunun direktoru, filologiya elmləri doktoru, professor Nadir Məmmədliyə hədiyyə edib. AMEA Nəsimi adına Dilçilik İnstitutunun direktoru, professor Nadir Məmmədlinin "Heydər Əliyevin dilçilik görüşləri" kitabı çap olunub. Heydər Əliyevin 100 illiyinə töhfə olan kitabda azərbaycançılıq məfkurəsinin banisi, görkəmli dövlət xadiminin Azərbaycan dili və dilçiliyinin inkişafında tarixi xidmətləri elmi cəhətdən araşdırılır, qarşısında duran əsas məsələlər təhlil süzgəcindən keçirilir. Nəşrdə xalqımızın milli varlığını yaşadan Azərbaycan dilinin dövlət dili kimi inkişafında Ümummilli Lider Heydər Əliyevin misilsiz xidmətləri vurğulanır. Dilçilik İnstitutunun ən böyük elmi uğurlarından biri professor Nadir Məmmədlinin 86 il itmiş hesab olunan Xalid Səid Xocayevin ərəbcədən tərcümə etdiyi Mahmud Kaşğarinin "Divanü lüğat-it türk" əsərini taparaq nəşr etdirməsidir. Hal-hazırda Dilçilik İnstitutunda dünya dilçiliyinin ən yeni istiqamətləri: psixolinqvistika, korpus dilçiliyi, sosiolinqvistika, riyazi dilçilik, koqnitiv dilçilik sahələrində mühüm tədqiqatlar aparılır. Nəsimi adına Dilçilik İnstitutu Azərbaycanda əsas dilçilik mərkəzi kimi bu gün də uğurla fəaliyyət göstərir.

**Baba MƏHƏRRƏMLİ**
**AMEA Nəsimi adına Dilçilik İnstitutunun direktor müavini**

## 26 İYUN AZƏRBAYCAN RESPUBLİKASININ SİLAHLI QÜVVƏLƏRİ GÜNÜDÜR



# Qalib Ordu - Qürurlu Dövlət

**Tarix sübut edir ki, dövlətin müstəqilliyi yalnız diplomatik uğurlarla deyil, güclü ordu ilə də qorunur. Azərbaycan tarixinin hər mərhələsində ordu amili milli varlığın təminatçısı olub. Xalq Cümhuriyyəti dövründə çətinliklərə baxmayaraq nizami ordu yaradılması bu ərazidə formalaşmış dövlətçilik ənənələrinin davamı idi. Cümhuriyyətin ilk hərbi hissəsi - Əlahiddə Azərbaycan Korpusu 1918-ci ilin iyununda təsis olundu və 26 iyun Silahlı Qüvvələr Günü kimi qeyd edilir.**

Cümhuriyyət dövründə ordu quruculuğu ciddi siyasi və texniki maneələrə rəğmən həyata keçirildi. Əsgərlər könüllü olaraq səfərbərliyə qoşuldu, orduya ianələrlə dəstək verildi, zabit kadrların yetişdirilməsi üçün Gəncədə hərbi məktəb açıldı.

XX əsrin əvvəllərində mürəkkəb geosiyasi şəraitdə yaranmış bu ordu, həm daxili təhlükəsizliyin, həm də ərazi bütövlüyünün qorunması istiqamətində mühüm funksiyalar yerinə yetirdi. Qısa zaman kəsiyində nizami hərbi hissələrin təşkili, zabit korpusunun formalaşdırılması, hərbi təhsilin və idarəetmənin əsaslarının qoyulması sübut etdi ki, Azərbaycan xalqı suverenliyini müdafiə etmək əzmindədir.

Azərbaycan xalqı bu orduya böyük ümid bəsləyirdi. Lakin 1920-ci ildə sovet işğalı milli ordunun fəaliyyətini dayandırdı.

Azərbaycanın müstəqilliyini bərpa etməsindən sonra, ordu quruculuğu Ulu Öndər Heydər Əliyevin siyasi iradəsi və strateji baxışı ilə yeni mərhələyə qədəm qoydu. 1993-cü ildən etibarən nizami və vahid komandanlığa əsaslanan, müasir döyüş qabiliyyətli ordu formalaşdırıldı. Hərbi təhsil müəssisələrinin inkişafı, zabitlərin yetişdirilməsi və sosial təminatın gücləndirilməsi istiqamətində ardıcıl həyata keçirildi. Müdafiə sənayesinin formalaşdırılması, xarici ölkələrlə hərbi sahədə əməkdaşlığın dərinləşdirilməsi və hərbi təlim sisteminin çağdaş tələblərə uyğunlaşdırılması Azərbaycan Ordusunun peşəkarlığını və döyüş qabiliyyətini əhəmiyyətli dərəcədə artırdı.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu regionun ən güclü ordularından birinə çevrildi. 2016-cı il Aprel döyüşləri, 2018-ci ildə Naxçıvan əməliyyatı və nəhayət 2020-ci ilin 44 günlük Vətən müharibəsi bu inkişafın təntənəli sübutudur. Şuşa döyüşləri, Xankəndi və Xocalının azadlığı, lokal antiterror tədbirləri milli ordumuzun yüksək peşəkarlığını və rəşadətini dünyaya göstərdi. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu tarixi ədaləti bərpa edərək torpaqlarımızı işğaldan azad etdi. Bu, yalnız hərbi uğur deyil, həm də Azərbaycan xalqının milli birliyinin, siyasi iradəsinin və dövlətçilik ənənələrinin zəfəridir.

Bu gün Azərbaycan Ordusu yalnız ərazi bütövlüyümüzün deyil, eyni zamanda regionda sülh və sabitliyin də qarantıdır. Dövlətin orduya göstərdiyi davamlı diqqət və qayğı, texniki təchizatdan sosial müdafiəyə qədər ordunu hər an döyüşə hazır gücə çevirib. Ordumuzun gücü yalnız silah-sursatda deyil, həm də xalqın inamı, zabit və əsgərlərin vətənpərvərliyindədir.

# «Qərbi Azərbaycana Qayıdış»

## AMEA-nın Naxçıvan Bölməsinin Elmi Kitabxanasında sərgi

**Vətənimizin ayrılmaz tərkib hissəsi olan Qərbi Azərbaycan hər qarışında keçmişimizin izlərini daşıyan tarixi məkandır. Sadəcə təbiətinə görə deyil, həmçinin mədəniyyət abidələrinin zənginliyinə görə də seçilən əzəli torpağımız tarixin yaddaşında əhəmiyyətli bir məqama malikdir.**




Bu məqsədlə AMEA-nın Naxçıvan Bölməsinin Elmi Kitabxanasında "Qərbi Azərbaycana Qayıdış" adlı sərgi təşkil edilib.

Sərgidə Qərbi Azərbaycanın tarixi, görkəmli şəxsiyyətləri, xanlıqlar dövrü, azərbaycanlılara məxsus olan dağıdılmış yaşayış məntəqələrinin siyahısı, Zəngəzur qəzası üzrə dağıdılmış kəndlərin siyahısı, Azərbaycanın müxtəlif tarixi dövrlərdəki xəritələri və fotoşəkillər nümayiş olunur.

Kitablar sırasında "Qərbi Azərbaycanın etno-mədəni mühiti: tədqiqlər, xatirələr, faktlar", "Ağbaba", "Qərbi Azərbaycan: tarixi-siyasi aspektlər", "Qərbi Azərbaycan: faktlar, sənədlər, reallıqlar", "Ağbaba, Şörəyel, Pəmbək və ona yaxın olan bölgələrin mikrotoponimləri", "Göyçədən başlayan ömür yolu" və başqaları yer alıb.

## ELAN

# "Gəncə incəsənəti" mövzusunda respublika konfransı



**Azərbaycan Milli Elmlər Akademiyasının Gəncə Bölməsinin Diyarşünaslıq İnstitutunun təşkilatçılığı ilə "Gəncə incəsənəti" mövzusunda 18 sentyabr 2025-ci il tarixində respublika elmi konfransı keçiriləcək.**

**1. Konfransın istiqamətləri:**

1. Azərbaycan mədəniyyətinin inkişaf tarixi: xalq sənətkarlığı və dekorativ - tətbiqi sənət.
2. Gəncə memarlığı, tarixi abidələrin mühafizəsi və bərpası. Milli-mənəvi dəyərlərin qorunmasında sənətkarlığın rolu.
3. Üzeyir Hacıbəyli və Gəncə musiqi mədəniyyəti tarixi.

**2. Konfransın keçirilməsi ilə bağlı tarixlər**

| | |
|---|---|
| • Məqalənin son göndərilmə tarixi | 18.08.2025-ci il |
| • Konfrans proqramının elan olunması | 12.09.2025-ci il |
| • Konfransın keçirilməsi | 18.09.2025-ci il |

**3. Konfransın formatı:**

• Əyani

• Konfransda ali təhsil və elmi-tədqiqat müəssisələrini təmsil edən professor-müəllim heyəti, doktorant, dissertant və elmi işçilər iştirak edə bilər.

• Konfrans materialları jurnal formasında AMEA Gəncə Bölməsinin rəsmi saytında yerləşdiriləcək, eləcə də çap formatında nəşr olunacaq.

**4.Təqdim olunan məqalələrin tərtibatına qoyulan tələblər**

• Azərbaycan, türk və rus dillərindən birində yazılması;
• materialın elektron formada, plagiat hesabatı ilə birlikdə təqdim edilməsi;
• mövzunun konfransın istiqamətlərindən birinə uyğun olması;
• elmi üslubda müvafiq dilin qrammatikasına uyğun yazılması;
• mətninin minimum 3 səhifə, maksimum 9 səhifədən ibarət olması;
• xülasənin (azərbaycan, rus və ingilis dillərində) 150 sözdən çox olmaması;
• açar sözün (azərbaycan, rus və ingilis dillərində) minimum 3, maksimum 5 sözdən ibarət olması (açar sözlərin müvafiq xülasələrin sonunda göstərilməsi);
• vərəqin baş tərəfində solda məqalənin mətninə uyğun UOT nömrəsinin, əvvəlində mövzunun adı (vərəqin mərkəzində), onun altında sağda isə müəllif(lər)in soyadı, adı, iş yeri, elmi dərəcəsi, elmi adı, tutduğu vəzifə, müəllif(lər)in elektron poçt ünvanı (e-mail) və əlaqə nömrəsinin yazılması;
• Microsoft Word fayl formatında hazırlanması, səhifə ölçülərinin sol kənarının – 2.5 sm, sağ kənarı 1.5 sm, yuxarı və aşağıdan – 2.0 sm ölçüdə olması;
• əsas mətn hissəsinin Times New Roman, 12 şrift, sətirlərarası məsafənin – 1.15 olması;
• əsas başlıqların Times New Roman, 14 şriftilə böyük, qalın, alt başlıqları isə Times New Roman, 12 şrifti ilə başlığın ilk hərfinin böyük, qalın yazılması;
• məqaləyə əlavə kimi verilən cədvəl və şəkillər cədvəl 1, cədvəl 2; şəkil 1, şəkil 2 kimi ardıcıllıqla sıralanması və ad verilməsi.
• məqalədə cədvəl və sitatlar ümumi həcminin yalnız 25%-ni əhatə edə bilər. Yerdə qalan hissə yeni fikir və araşdırma olmalıdır.
• iradlar olan məqalənin düzəlişlər edilmək üçün müəllif(lər)ə göndərilməsi;
• iradlar nəzərə alınaraq yeni redaksiyada tərtib olunmuş məqalənin qəbul olunması üçün müəllifinin təkrar müraciət etməsi;
• mətndə istinad edilən müəllifin ifadəsinin sonunda kvadrat mötərizədə müəllif(lərin)in soyadı, mənbənin nəşr tarixinin [Məmmədov, 2007, s.18] göstərilməsi;
• istifadə edilmiş ədəbiyyat siyahısının əlifba sırası ilə göstərilməsi;
• istifadə edilən ədəbiyyatların müəllifinin, adının, nəşr ilinin və yerinin, ümumi səhifəsinin dəqiq göstərilməsi;
